# QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 213 (6177) 28 noyabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# Bizim yumruğumuz bizim birliyimizdir!

## *İlham Əliyev: "Bu gün dünyada güc amili həlledici rol oynayır"*

Bax2



## Milli Məclisin sədri MDB PA-nın 51-ci plenar iclasında iştirak edib

Bax 3



Noyabrın 27-də Müstəqil Dövlətlər Birliyinin (MDB) iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleya Şurasının iclası və MDB-nin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının videokonfrans formatında 51-ci plenar iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, videokonfrans formatında keçirilən tədbirdə...

## Ceyhun Bayramov: Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa edir

Bax 3



"Münaqişələr, uzun sürən xarici işğalçılıq və cavabdehliyin olmaması sülh və təhlükəsizliyi təhlükə altına qoyur. Bu həm də regional əməkdaşlığı əngəlləyir". SİA-nın məlumatına görə, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) üzv dövlətlərinin Xarici İşlər Nazirləri Şurasının 42-ci iclasında deyib.

## Türkiyə parlamentinin siyasi partiya qrupları Fransa Senatının Dağlıq Qarabağla bağlı qərəzli qətnaməsini pisləyən bəyanat yayıblar



Türkiyənin Ədalət və İnkişaf, Cümhuriyyət Xalq, Milliyyətçi Hərəkat və İYİ partiyalarının Türkiyə Böyük Millət Məclisindəki qrupları Fransa Senatının Dağlıq Qarabağla bağlı qərəzli qətnaməsini pisləyən ortaq bəyanat yayıblar.

Bax 5

## Nikol Paşinyan: "Hakimiyyəti əlimizdən almalarına imkan verməriк"

Milli ləyaqəti qorumaq vacibdir, xüsusilə Ermənistanın indiki çətin vəziyyətində, zərbə altında qaldığı zamanda. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri Ermənistanın baş naziri Nikol Paşinyan xalqa müraciətində deyib. "İndi ən başlıcası ölkədəki daxili sabitliyi təmin etmək...

Bax 5



## Edmon Marukyan: "Ermənistan hakimiyyəti hələ də yalan danışır"

Bax 13



*"Ermənistan hakimiyyəti müharibədən əvvəl də, müharibə zamanı da yalan danışdı və bu günə qədər də yalan danışmağa davam edir...*

## YAP İdarə Heyətinin videokonfrans formatında növbəti iclası keçirilib

Noyabrın 27-də Yeni Azərbaycan Partiyası İdarə Heyətinin videokonfrans formatında növbəti iclası keçirilib. İclasda qondarma Dağlıq Qarabağın tanınmasının tövsiyyə edilməsinə dair...

Bax 3

Bax 4




## Euronews: Qafqazın Xirosiması: AĞDAM!

## Bakı-Xırdalan-Sumqayıt qatarı yenidən xəttə buraxılır



Bax 13

## İşğaldan azad edilmiş İstisu



Bax 9

## Azərbaycan millisi beşinci səbətdə yer alıb




Bax 16

# Bizim yumruğumuz bizim birliyimizdir!

## İlham Əliyev: “Bu gün dünyada güc amili həlledici rol oynayır”

***“Noyabrın 20-də Ağdam şəhəri və Ağdam rayonunun işğal altında olan hissəsi işğaldan azad edilib. Bu münasibətlə mən Azərbaycan xalqını təbrik etmişdim, ağdamlıları təbrik etmişdim. Bu gün mən buradayam, Ağdam şəhərindəyəm. Ağdam məscidini ziyarət etmişəm, Azərbaycan Dövlət Bayrağını qaldırmışam. Biz Ağdama qayıtmışıq. Bütün ağdamlıları bu tarixi hadisə münasibətilə bir daha təbrik etmək istəyirəm”.***



Bunu noyabrın 23-də işğaldan azad olunmuş Ağdam şəhərinə səfər edən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev deyib. Dövlət başçısı bildirib ki, bu gün dünyada güc amili həlledici rol oynayır, haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, güc də bizim tərəfimizdə olmalıdır: “Bilirəm ki, ağdamlılar bu günü uzun illər ərzində səbirsizliklə gözləyiblər. Həm işğal dövründə - 30 ilə yaxın müddət ərzində, eyni zamanda, İkinci Qarabağ müharibəsi, Vətən müharibəsi dövründə gözləyirdilər ki, Ağdam işğaldan nə vaxt azad ediləcək. Biz öz tarixi missiyamızı şərəflə yerinə yetirdik, işğal olunmuş torpaqları düşməndən azad etdik. Döyüş meydanında əldə edilən qələbə imkan verdi ki, Ağdam rayonu, eyni zamanda, Kəlbəcər və Laçın rayonları bir güllə atmadan, bir şəhid vermədən işğaldan azad edilsin.

Biz bu torpaqlara Azərbaycan xalqının, şəhidlərimizin canı, qanı bahasına, qəhrəmanlarımızın şücaəti hesabına qayıtmışıq. Biz güc toplamalı idik və toplayırdıq. Mən son 17 il ərzində xalqa müraciət edərkən dəfələrlə deyirdim ki, biz daha güclü olmalıyıq, daha qüdrətli ordu qurmalıyıq. Bu gün dünyada güc amili həlledici rol oynayır. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, güc də bizim tərəfimizdə olmalıdır. Məhz gücümüzün yetərli dərəcədə olmaması nəticəsində Azərbaycan 1990-cı illərin əvvəllərində işğala məruz qalmışdır. Biz güc toplayırdıq, güclənirdik. Mən deyirdim ki, hər gün hər bir Azərbaycan vətəndaşı bu müqəddəs günü, bu zəfər gününü öz əməyi, zəhməti, Vətənə olan sədaqəti ilə yaxınlaşdırmalıdır”.

Bəli, bu gün məhz o gücünü, birliyin nəticəsidir ki, 30 il işğalçı Ermənistanın çirkin niyyətlərini altüst ktdi. Və Ali Baş Komandanımız İlham Əliyev cənablarının yerli və xarici televiziya kanallarına verdiyi müsahibələrində, xalqa müraciətlərində səsləndirdiyi hər bir bəyanatda 30 ilə yaxın müddətdə dünya dövlətlərinin siyasi iradə ortaya qoymamalarının yol açdığı sual doğuran və dəqiq cavabını axtaran məqamlar öz əksini tapıb. Real həqiqətlər bir daha bu gerçəkliyə işıq salır ki, zaman keçdikcə baş verən hadisələrin mahiyyəti daha dərindən dərk olunur, haqqın, ədalətin maraqların arxasında necə əridiyi aydın görünür. Bu gün dünyaya edilən “həqiqətə həqiqət gözü ilə baxaq” çağırışı erməniləri və onların havadarlarını narahat etsə də, unudulmamalıdır ki, beynəlxalq hüquq normaları və prinsipləri deyilən məfhum mövcuddur ki, onlara böyüklüyündən, kiçikliyindən asılı olmayaraq bütün dövlətlər əməl etməli, yanaşmalarında əsas götürməlidirlər.

### “Biz iqtisadi cəhətdən müstəqil olmasaydıq, biz siyasi müstəqillik əldə edə bilməzdik”

Prezident İlham Əliyev noyabrın 23-də Ağdama səfəri zamanı bildirib ki, iqtisadi cəhətdən müstəqil olmasaydıq, biz siyasi müstəqillik əldə edə bilməzdik və siyasi müstəqillik də olmadan torpaqlarımızı düşməndən azad edə bilməzdik: “Mən bu 17 il ərzində daim deyirdim ki, biz iqtisadi sahəyə güclü təkan verməliyik, iqtisadi müstəqilliyimizi təmin etməliyik və təmin etdik. Bu gün biz iqtisadi cəhətdən heç kimdən asılı deyilik. Asılı olsaydıq, bizə təzyiqlər edilə bilərdi. Onsuz da edilmişdi, ancaq onların heç bir səmərəsi olmadı. Çünki bizə qarşı iqtisadi amildən istifadə etmək mənasızdır. Biz heç kimdən asılı deyilik, hansısa ölkədən, hansısa beynəlxalq maliyyə qurumundan asılı deyilik. Əksinə, biz özümüz indi donor ölkəyik, biz özümüz indi kreditlər veririk. Bizim kifayət qədər güclü iqtisadi potensialımız və maliyyə resurslarımız imkan verdi ki, iqtisadi müstəqilliyi tam təmin edək. Bu da qələbənin əldə edilməsində xüsusi rol oynayırdı. Çünki əgər biz iqtisadi cəhətdən müstəqil olmasaydıq, biz siyasi müstəqillik əldə edə bilməzdik. Siyasi müstəqillik olmadan torpaqlarımızı düşməndən azad edə bilməzdik”.

Dövlət başçımızın dediyi kimi, çünki bu amillər gücümüzü artırdı, qələbəmizi şərtləndirdi: “Bu amillər gücümüzü artırdı, qələbəmizi şərtləndirdi. O amillərin arasında birinci nömrəli məsələ hərbi gücümüzdür. Mən dəfələrlə demişdim ki, bizim üçün hərbi gücümüzün möhkəmləndirilməsi birinci məsələdir. Təsadüfi deyil ki, mənim prezidentlik dövrümdə bizim hərbi xərclərimiz hər il büdcə xərcləri arasında birinci yerdə idi. Mən deyirdim və ya vətəndaşlara izah edirdim ki, bəli, bizim çoxlu başqa məsələlərimiz var, həllini gözləyən problemlər var. Ancaq bizim əsas problemimiz torpaqlarımızın işğal altında olmasıdır. Ona görə bizim xərclərimiz arasında birinci yerdə hərbi xərclər dayanır. Biz lazım olan texnikanı aldıq. Bu texnikanı, müasir silahları Azadlıq meydanında dəfələrlə keçirilmiş paradlarda nümayiş etdirirdik. Biz ordumuzu inkişaf etdirərkən ən qabaqcıl meyilləri nəzərdən keçirmişdik. Biz o silahları alırdıq ki, bu silahlar bizim üstünlüyümüzü təmin etsin və İkinci Qarabağ müharibəsi bunu göstərdi”.

### Azərbaycan qisası qiyamətə saxlamadı - Koçaryan-Sarkisyan ordusu məhv edildi!

Məhz Azərbaycan Prezidenti, Ali Baş Komandanımız İlham Əliyevin apardığı diplomatik, qətiyyətli siyasətinin, gücünün nəticəsidir ki, Koçaryan-Sarkisyan ordusu məhv edildi! Məhv edilməli idi də! Çünki bu ölkədə qanunun aliliyi heç vaxt təmin olunmayıb. Bu, Ermənistanda dövlət quruculuğunun olmadığının göstəricisidir. Bu ölkənin bir-birini əvəzləyən rəhbərliyi bir qayda olaraq “Ermənistanın güclü, qüdrətli ordusunun” olduğunu bildirib, onun “qəhrəmanlıqlarından” danışıblar.

Təbii ki, onların “qəhrəmanlıqları” Rusiya ordusunun yardımı ilə Qarabağı işğaldan başlayır. 1992-ci il fevralın 26-da Ermənistan hərbçiləri Rusiyanın 366 motoatıcı sülhməramlı alayı ilə birlikdə Xocalı soyqırımını törədiblər. Həmin vaxt ölkə prezidenti Ter-Petrosyan olsa da, Koçaryan və Sarksyanın da bu hakimiyyətə təsir gücü az deyildi. Qonşu dövlətin, yəni Azərbaycanın torpaqlarını işğal etməklə öyünən Ermənistan hakimiyyəti Qarabağda yalnız əliyalın dinc sakinləri qətlə yetirib. Bunu Serj Sarqsyan da etiraf edib. Tomas de Valın müəllifi olduğu “Qara Bağ: Ermənistan və Azərbaycan sülh və savaş yollarında” adlı kitabında S.Sarkisyanın dediklərinə istinadla yazılıb: “Xocalıdan əvvəl azərbaycanlılılar düşünürdülər ki, ermənilər mülki insanlara qarşı əl qaldıra bilməzlər. Amma biz bu stereotipi sındıra bildik”.

### Prezident İlham Əliyev: “Hərbi cinayətkarlar, Xocalı qatilləri, sizi məhv etmişik. Azərbaycan əsgəri, Azərbaycan zabiti sizi məhv edib. Əcəb də eləyib!”

Bəli cinayətkarlar cəzasının almalı idi. Özü də Azərbaycvn dövləti, Azərbaycan Lideri, Azərbaycan əsgər və zabitləri qarşısında. Prezident İlham Əliyev Ağdam səfərində bir daha bildirib ki, Koçaryan, Sarkisyan əsgər və zabitlərimiz qaoşısında diz çökdülər: “Orada elə istehkamlar qurmuşdular ki, bəlkə də heç dünyada belə istehkamlar olmayıb. Nə üçün? Çıxmaq istəmirdilər. Hesab edirdilər ki, orada əbədi oturacaqlar. Erməniləşdirmək istəyirdilər. Bax, bütün Ağdam şəhəri dağıdılıb. Oranı onlar 1990-cı illərdə dağıdıblar ki, əgər sülh müqaviləsi imzalansa, Azərbaycan xalqı gəlib burada yaşaya bilməsin. Hər tərəf minalanıb. Ən çox minalar məhz buradadır. Amma səhv etdilər. Biz bütün bu illər ərzində bir amalla, bir arzu ilə yaşamışıq ki, bu torpaqlara qayıdaq və qayıtmışıq. Ermənistan ordusunu məhv etmişik. Ermənistan ordusu demək olar ki, yoxdur. Hərbi cinayətkarları məhv etmişik, onların tör-töküntülərini məhv etmişik. Mən Füzuli şəhərində demişəm, bir daha demək istəyirəm, biz Koçaryan, Sarkisyan ordusunu məhv etmişik. Biz Koçaryana, Sarkisyana qarşı qüdrətimizi göstərmişik. Biz onları məğlub etmişik. Paşinyan kimdir, mən indi onun haqqında danışmaq istəmirəm, nə lazımsa demişəm. Koçaryan, Sarkisyan, siz diz çökdünüz bizim qabağımızda, siz buranı, işğal edilmiş bütün torpaqları bax, bu günə saldınız. Siz bu məscidi dağıtdınız. İkinci Qarabağ müharibəsi dövründə qaçıb gizləndilər. Döyüş bölgəsinə burunlarını da belə soxa bilmədilər. Bəs, haradadır sizin qəhrəmanlığınız? Dedim ki, çıxarın dəmir-dümürləri, onun qiyməti yoxdur. Qəhrəman ordenləri taxmısınız döşünüzə. Yalançı qəhrəmandırlar bunlar. Bax, mən burada durmuşam, dağıtdığınız məscidin önündə, dağıtdığınız Ağdam şəhərində, öz ordumla buraya gəlmişəm. Qalib kimi gəlmişəm. Siz isə öz miskin həyatınızın sonuna qədər məğlub edilmiş, qorxaq damğası ilə yaşayacaqsınız. Nə gizlənirsiniz orada sıçan kimi?! Koçaryan, Sarkisyan, mən sizə deyirəm. Paşinyan heç kimdir. İndi onun dərdi, azarı hakimiyyətdə qalmaqdır. Buna görə də bütün müxalifəti tutdurur. Qərb də susur buna, susur, ağzına su alıb. Görmür ki, nələr baş verir orada?! Hərbi cinayətkarlar, Xocalı qatilləri, sizi məhv etmişik. Azərbaycan əsgəri, Azərbaycan zabiti sizi məhv edib. Əcəb də eləyib!”.

### Azərbaycan əsgəri ermənilərin törətdikləri qətllərin cavabını verməklə qisası qiyamətə saxlamadı

Bəli, Azərbaycan əsgəri ermənilərin törətdikləri qətllərin cavabını verməklə qisası qiyamətə saxlamadı. Azərbaycan ordusu Sarksyanın qoşunlarının birinci dəfə dərsini 2016-cı ilin aprel döyüşlərində vermişdi. Azərbaycan əsgəri 44 günlük döyüşlərdə isə həmin ordunu məhv etdi.

Beləliklə, Azərbaycan ordusu işğalçını Qarabağdan qovmaqla yanaşı, Koçaryan və Sarqsyanın dövlət quruculuğu ilə məşğul olmadığını da sübut edib, onların iç üzünü erməni ictimaiyyətinə və sponsorlarına göstərdi. Bir də məlum oldu ki, Ermənistan ordusu dinc sakinlərə quldurcasına hücum edən silahlı dəstələrdən, “əsgər payını” oğurlayan generallardan ibarətdir.

Bir sözlə, Azərbaycan ordusu öz torpaqlarını işğalçı Ermənistandan, onu müdafiə edən sponsorlar və havadarlarından azad etdi. Azərbaycan əsgəri Xocalı və başqa kəndlərdə ermənilərin törətdikləri qətllərin cavabını verməklə qisası qiyamətə saxlamadı.

**RƏFİQƏ HÜSEYNOVA**

# Milli Məclisin sədri MDB PA-nın 51-ci plenar iclasında iştirak edib



Noyabrın 27-də Müstəqil Dövlətlər Birliyinin (MDB) iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleya Şurasının iclası və MDB-nin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının videokonfrans formatında 51-ci plenar iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, videokonfrans formatında keçirilən tədbirdə Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, Rusiya, Tacikistan, Özbəkistan nümayəndə heyətləri və bir sıra beynəlxalq təşkilatların təmsilçiləri iştirak ediblər.

İclasda Milli Məclisin sədri, MDB PA-da nümayəndə heyətimizin rəhbəri Sahibə Qafarova da iştirak edib. Tədbirdə təşkilati məsələlərə baxılıb, Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının Sədri Valentina Matviyenko yenidən MDB PA Şurasının Sədri seçilib.

Sonra iclasda COVID-19 pandemiyası ilə əlaqədar MDB iştirakçısı olan dövlətlərdə qanunvericilik sahəsində görülmüş tədbirlər, Avrasiya məkanında iqtisadi inteqrasiyanın vəziyyəti, perspektivləri və onun normativ-hüquqi təminatı, 2021-ci ildə MDB ölkələrinin dövlət orqanlarına keçiriləcək seçkilərin müşahidəsinə hazırlıq, MDB PA-nın AŞPA ilə əməkdaşlığının istiqamətləri, MDB PA-nın 2021-ci il üçün fəaliyyət planı, bir sıra təşkilati və maliyyə məsələləri müzakirə olunaraq müvafiq qərarlar qəbul edilib.

# Ceyhun Bayramov: Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa edir



"Münaqişələr, uzun sürən xarici işğalçılıq və cavabdehliyin olmaması sülh və təhlükəsizliyi təhlükə altına qoyur. Bu həm də regional əməkdaşlığı əngəlləyir". SİA-nın məlumatına görə, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) üzv dövlətlərinin Xarici İşlər Nazirləri Şurasının 42-ci iclasında deyib.

C.Bayramov qeyd edib ki, bu ilin 9 noyabrında Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistanın Baş nazirinin imzaladığı bəyanat Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində yeni səhifə açdı: "Ermənistan Azərbaycanın işğal edilmiş ərazilərdən öz silahlı qüvvələrini çıxarır. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa edir. Keçmiş münaqişə zonasına sülhməramlı qüvvələr yerləşdirilir və birgə atəşkəs monitorinq mərkəzi yaradılır. Münaqişənin həllində yeni mərhələyə, yenidənqurma və reabilitasiya mərhələsi, dinc birgəyaşayışın bərpası mərhələsinə qədəm qoymuşuq. İnkişaf və əməkdaşlıq üçün yeni imkanlar meydana çıxır və QDİƏT yeni reallıqları qiymətləndirməli və onlardan faydalanmalıdır.

Azərbaycan, Ermənistan və Rusiya liderlərinin Qarabağ münaqişəsinin həllinə dair birgə bəyanatında əks olunduğu kimi, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri açılır. Bu o deməkdir ki, Asiya ilə Avropa arasında ticarətdə regionumuzun rolunun gücləndirilməsinə imkanlar yaradacaq həyati əhəmiyyətli müstəqil quru dəhlizi fəaliyyətə başlaya bilər.

Azərbaycanın bütün tərəfdaşlarına təklif edə biləcəyi və artıq təklif etdiyi çox şey var. QDİƏT üzv dövlətləri birləşdirən və müştərək firavan gələcək qurmağa imkan verən təşəbbüslərimiz regional əməkdaşlığı genişləndirmək və dərinləşdirmək üçün maraq və potensialımızın ən yaxşı nümunəsidir. Gələcək əməkdaşlıq üçün hazırıq. Yalnız müştərək əzmkarlıq, xüsusilə dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı ilə bağlı olan beynəlxalq öhdəliklərə tam əməl etməklə biz dinc, firavan və sabit gələcəyə nail ola bilərik".

# YAP İdarə Heyətinin videokonfrans formatında növbəti iclası keçirilib



Noyabrın 27-də Yeni Azərbaycan Partiyası İdarə Heyətinin videokonfrans formatında növbəti iclası keçirilib. İclasda qondarma Dağlıq Qarabağın tanınmasının tövsiyyə edilməsinə dair Fransa Senatının noyabrın 25-də qəbul etdiyi qətnamə geniş müzakirə edilmiş, həmin sənədin münaqişənin həlli istiqamənindəki səylərə, eləcə də ölkələrimiz arasındakı münasibətlərə mənfi təsirləri barədə geniş fikir mübadiləsi aparılmışdır. Qeyd edilmişdir ki, bu qətnamə beynəlxalq aləmdə ən qeyri-obyektiv, zərərli və prinsipsiz sənəd hesab edilməlidir. Bu qətnamənin timsalında beynəlxalq ictimaiyyət vasitəçinin öz vəzifə borcuna hansı prizmadan yanaşmasının şahidi oldu.

Müzakirələrdə vurğulanmışdır ki, BMT Təhlükəsizlik Şurasının verdiyi mandata uyğun olaraq, Azərbaycan-Ermənistan Dağlıq Qarabağ münaqişəsinin nizamasalınmasında vasitəçilik missiyasını yerinə yetirməli olan Fransadan tələb olunan ən mühüm şərt obyektivlik, tərəfsizlik və qərəzsizlikdir. Lakin Fransa Senatı noyabr ayının 25-də Dağlıq Qarabağın tanınması haqqında məsuliyyətsiz qətnamə qəbul etməklə öz üzərinə götürdüyü öhdəliklərə məhəl qoymaq fikrində olmadığını nümayiş etdirdi.

Qeyd olunmuşdur ki, BMT Təhlükəsizlik Şurasının üzvü kimi Fransadan istənilən mübahisəli məsələlərdə ədalətli mövqe nümayiş etdirmək məsuliyyəti tələb edilir. Bu məsuliyyəti dərk etməyən Fransanın beynəlxalq münasibətlərlə əlaqədar taleyüklü qərar qəbul etmək, hakim rolunu oynamaq səlahiyyəti ciddi suallar doğurur. Fransa Senatının qəbul etdiyi bu qətnamə BMT Təhlükəsizlik Şurasında qəbul edilmiş qətnamələrdə əks olunan beynəlxalq hüquq və prinsiplərlə daban-dabana ziddiyyət təşkil edir. İclasda xüsusilə vurğulanmışdır ki, Fransa Senatının qəbul etdiyi məlum qətnamənin Minsk Qrupunun fəaliyyətinə ağır zərbə vurduğu şəksizdir.

İclasda müzakirələrin yekunu olaraq Yeni Azərbaycan Partiyasının adından Fransa Senatında noyabrın 25-də "Dağlıq Qarabağ Respublikasının tanınmasının zəruriliyinə dair" 145 nömrəli qətnamənin qəbul olunmasını qətiyyətlə pisləyən bəyanat qəbul edilmişdir.

# "France-24" kanalı Füzulidən reportaj hazırlayıb




"France-24" kanalı Azərbaycanın erməni işğalından azad edilmiş Füzuli rayonundan reportaj hazırlayıb. AZƏRTAC xəbər verir ki, kanalın Füzuliyə ezam olunmuş müxbiri ətrafda boş, kədərli, müharibə dağıntıları ilə dolu mənzərənin göründüyünü deyir. O bildirir ki, ətrafda minalar, tərk edilmiş kazarma, yol boyunca erməni tankları var. Hər tərəfdə döyüş izləri, döyüş texnikası görünür. Onlardan bəziləri təzə, bəziləri isə əvvəlki döyüşlərdən qalanlardır.

Bildirilir ki, erməni silahlı qüvvələri Füzuli rayonunu işğal etməmişdən əvvəl burada 200 minə yaxın azərbaycanlı yaşayıb. Reportajda Füzuli azad olunandan sonra doğma yurdlarına gedən rayon sakinlərinin fikirlərinə də yer verilib. Füzuli sakini Hafiz Tahirov rayona gəldiyini və dağıntılarla rastlaşdığını, ermənilərin hər tərəfi minaladığını bildirir.

Rayonun digər sakini Ramilə Məmmədova deyir: "Bura mənim atamın evi olub. İndi heç nə yoxdur. Erməni vandallarının bizə qarşı bu vəhşiliyini heç vaxt unuda bilmərik. Gənc nəslə nə isə deməyə ehtiyac yoxdur. Onlar hər şeyi özləri görür. Bunları unutmaq olmaz".

Reportajda qeyd edilir ki, 1988-1994-cü illər müharibəsi nəticəsində Füzuli rayonunun mərkəzi ruhlar şəhərinə çevrilib. Ona görə də indi Füzulinin bərpası üçün vaxt lazımdır. Reportajda o da vurğulanır ki, Azərbaycanın müharibədə qələbəsi bu torpaqları azad etməyə imkan verdi, ancaq insanlar buralara gələrkən doğma yurdlarının dağıntıları ilə üzləşirlər.

# İtaliyan senator: "İtaliyanın Azərbaycanda strateji maraqları cəmləşir"



İtaliya Senatında "İrəli İtaliya" siyasi qrupunun üzvü senator Urania Papatheu İtaliya mətbuatına açıqlamasında bildirib ki, Ermənistan tərəfindən heç bir əsası olmayan təcavüzə məruz qalan Azərbaycanın ərazi bütövlüyü Avropa İttifaqı tərəfindən tanınır və dəstəklənir və İtaliya müharibənin sona çatmasından sonra vəziyyətin mütəmadi normallaşması istiqamətində Azərbaycana kömək etməli və dəstək göstərməlidir. SİA-nın verdiyi məlumata görə, "İtaliyanın Azərbaycanda strateji maraqları cəmləşir, azərbaycanlılar İtaliyanı sevən bir xalqdır, bu baxımdan İtaliyanın Azərbaycanla münasibətləri yeni istiqamətlər üzrə möhkəmləndirməsi vacibdir", deyə Papatheu bildirib.

İtalyan senator əlavə edib ki, işğal olunmuş ərazilərin Azərbaycana geri qaytarılmasını nəzərdə tutan proses İtaliya tərəfindən dəstəklənməlidir və bu, yeni, qarşılıqlı və strateji perspektivlər baxımından yalnız başlanğıc təşkil edir. "İtaliya yalnız neft və qazla deyil, habelə sinerji və qarşılıqlı əlaqə imkanları üçün insan resursları və mədəni yaxınlıqlar baxımından da zəngin olan Azərbaycan ilə ortaq bir yolun fəal iştirakçısı olmalıdır", deyə italyan senator fikirlərini tamamlayıb.

https://www.agenzianova.com/a/5fbd4880857a68.90728217/3205468/2020-11-24/nagorno-karabakh-papatheu-fi-italia-sostenga-azerbaigian-dopo-fine-guerra https://kmetro0.it/2020/11/25/papatheu-fi-italia-sostenga-azerbaijan-dopo-fine-guerra-ora-sinergia-e-interscambi/

***Ceyhun Rasimoğlu***

# Mariya Zaxarova: Rusiya Qarabağ münaqişəsinin nizamlanması məsələsi üzrə Türkiyə ilə müntəzəm əlaqədədir



Rusiya Qarabağ münaqişəsinin nizamlanması məsələsi üzrə Türkiyə ilə müntəzəm əlaqədədir.

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib. O deyib: "Türkiyə ilə qarşılıqlı fəaliyyətimizə gəldikdə, bu əlaqələr müxtəlif istiqamətlərdə aparılır. Buraya həm siyasi-diplomatik əlaqələr, həm hərbçilərimiz arasında əlaqələr aiddir. Sözsüz ki, əlaqələrin vektoru regionda vəziyyəti müzakirə edən dövlət başçıları tərəfindən müəyyən olunur".

RF XİN-in rəsmi nümayəndəsi Rusiya Prezidenti Vladimir Putinin bu yaxınlarda "Rossiya-1" telekanalına verdiyi müsahibəni xatırladıb. Prezident həmin müsahibəsində qeyd edib ki, Rusiya və Türkiyənin problemlərə müxtəlif baxışları olur, haradasa yanaşmalar üst-üstə düşmür. Lakin tərəflər təkcə ikitərəfli münasibətlər kontekstində deyil, həm də regional sabitlik kontekstində qarşılıqlı fəaliyyətin faydalı ola biləcəyi təmas nöqtələrini axtarırlar.

# Bəşər mədəniyyətinə qarşı vəhşilik

*İƏT Dağlıq Qarabağda və ətraf rayonlardakı tarixi abidələrin vəziyyəti ilə əlaqədar dərin narahatlığını bildirib*

***Bu gün 30 ilə yaxın erməni işğalçıları tərəfindən işğal olunan torpaqlarımız azad nəfəs alır. İşğaldan azad olunmuş qədim tarixi torpaqlarımızda Ermənistanın hərbi birləşmələri yaşayış yerlərini, insan məskənlərini, eləcə də milli mədəniyyət abidələrimizi qəddarcasına dağıdıblar.***



Erməni terrorçuları tərəfindən zəbt olunmuş qədim Azərbaycan torpaqları olan Dağlıq Qarabağ və ona bitişik rayonlarda 13 dünya əhəmiyyətli - 6 memarlıq və 7 arxeoloji, 292 ölkə, 330 yerli əhəmiyyətli memarlıq, arxeoloji, bağ, park, monumental və xatirə abidələri, sənət nümunələri qalmışdı. Həmçinin bu ərazilərdə 40 mindən artıq əşyanın toplandığı 22 muzey, yüzlərlə mədəni-maarif müəssisələri də düşmən tapdağı idi.

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş Katibliyi İslam irsinin ayrılmaz hissəsi olan Dağlıq Qarabağda və ətraf rayonlardakı tarixi abidələrin vəziyyəti ilə əlaqədar dərin narahatlığını bildirir. Bu haqda İƏT-in yaydığı bəyanatda bildirilir ki, maddi və mənəvi dəyərlərin, xüsusən Qubadlı rayonunun bu yaxınlarda azad edilmiş Məmər kəndindəki məscidin qəsdən dağıdılması və talan edilməsi, tarixin mənimsənilməsi və saxtalaşdırılması təcavüz siyasətinin bariz sübutudur. Bəyanatda qeyd olunur ki, işğal olunmuş ərazilərdə əsrlərboyu qalmış dini-mədəni irslərdən sui-istifadə beynəlxalq qanunların və konvensiyaların, o cümlədən “Silahlı Münaqişələr zamanı Mədəni Mülkiyyətin Qorunmasına dair 1954-cü il Haaqa Konvensiyası”nın və 1954, 1999-cu il protokollarının açıq şəkildə pozulmasıdır. xarici işlər nazirləri Şurasının 46-cı iclasında İƏT “İslamın müqəddəs yerlərinin qorunması haqqında” 3/46-S saylı Qərar qəbul edib. Qərarda erməni təcavüzkarları tərəfindən Azərbaycan Respublikasında İslama aid tarixi və mədəni irsin tamamilə məhv etmək məqsədi, barbar hərəkətləri pislənilib”.

Ermənilərin bu əməli “Arxeoloji irsin qorunması haqqında” 1992-ci il tarixli Avropa Konvensiyası və “Silahlı münaqişələr zamanı mədəniyyət abidələrinin qorunması haqqında” Avropa Konvensiyasına tam ziddir. Onların etdikləri “Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında” Paris Konvensiyası, UNESCO-nun “Ümumdünya mədəni və təbii irsin qorunması haqqında” 1972-ci il Konvensiyası ilə də ziddiyyət təşkil edir. Məlumdur ki, zəngin ədəbi və mədəni irsi olan Azərbaycan xalqının yaşadığı bölgələr əsrlər boyu işğalçıların hücumlarına və vəhşiliklərinə məruz qalmış, həmin işğallar nəticəsində yaxın və uzaq tarixi keçmişimizdən xəbər verən bir çox tarixi mədəniyyət abidələrimiz məhv olmuşdur. Əslində, ermənilərin etdikləri yalnız Azərbaycana qarşı yönəlməyib. Bu, bəşər mədəniyyətinə qarşı vəhşilik və təxribatdır. Bütün məscidlərimiz ermənilər tərəfindən dağıdılmışdır.

Xocalı, Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı kurqanlarla yanaşı, Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki qəbiristanlar, türbələr, məzarüstü abidələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və digər milli abidələrimiz məhv edilib. Memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən XIX əsrin ikinci yarısında Şuşa şəhərində inşa edilmiş Gövhər ağa məscidi erməni terrorunun qurbanına çevrilib. Təkcə İslam mədəniyyətinə aid abidələr deyil, digər abidələr də məhv edilib. İlk insan məskənlərindən olmuş məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları hərbi məqsədlər üçün istifadə edilib. Bundan başqa, Şuşada Tarix Muzeyi, Daş Sənətkarlığı Muzeyi, Dərman Bitkiləri Muzeyi, Üzeyir Hacıbəylinin, Bülbülün, Xurşidbanu Natəvanın və Mir Möhsün Nəvvabın ev muzeyləri fəaliyyət göstərirdi. Bütün bu muzeylər 1992-ci ilin mayında Şuşanı işğal etmiş erməni vandalları tərəfindən dağıdılaraq, yerlə-yeksan edilmiş, onların eksponatları qarət edilərək, aparılmışdır. Yalnız Xalça Muzeyində saxlanılan və 300-dən artıq əl işi olan xalçaların 145-ni xilas etmək mümkün olmuşdur. Məkrli niyyət və mənfur siyasət sahibi olan ermənilərin azərbaycanlılara qarşı törətdikləri vandalizm hərəkətləri hər zaman pislənilib. 2006-cı ilin iyununda ermənilərin işğal edilmiş Xocavənd ərazisində törətdikləri yanğınlar nəticəsində yaşı 800 il olan XII əsr abidəsi Qaraca Çobanın qəbri yanmışdır.

Ermənilərin törətdikləri yanğınlar e.ə. II minilliyə aid olan Nərgiztəpə mədəni abidəsini külə döndərmiş, yanğının yaratdığı yüksək temperatur nəticəsində Qaraca Çobanın qəbri parça-parça olmuşdur. Yanğınlar nəticəsində qədim türk tayfalarına mənsub olan “Əfşarlar qəbiristanlığı” da məhv edilmişdir. Ermənilər Azərbaycan xalqının tarix və mədəniyyətinə dair fakt və həqiqətləri saxtalaşdırmaqla bərabər, abidələrin görünüşünü və yazılarını da süni şəkildə “erməniləşdirmişlər”.

Şuşa mağarası, Şuşanın qala divarları, görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin Şuşadakı məqbərəsi, Füzulidə Şah Abbas karvansarası, Ağdam, Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl və s. yaşayış məntəqələrində olan mədəni-tarixi abidələrimiz ermənilər tərəfindən tamamilə dağıdılmış, Qarabağ ərazisindəki qədim alban kilsələri silah anbarlarına çevrilərək, yararsız hala salınmışdır. Bu gün Azərbaycan xalqı öz torpaqlarını işğaldan azad edib və Dağlıq Qarabağ və ona bitişik rayonlarda olan dini-mədəniyyət abidələrimiz tezliklə bərpa olunacaqdır.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Yeni Azərbaycan Partiyasının Fransa Senatına etiraz bəyanatı

Yeni Azərbaycan Partiyası olaraq, Fransa Senatında noyabrın 25-də “Dağlıq Qarabağ Respublikasının tanınmasının zəruriliyinə dair” 145 nömrəli qətnamənin qəbul olunmasını qətiyyətlə pisləyirik. Avropa demokratiyasının aparıcı dövlətlərindən sayılan Fransanın qanunverici orqanı tərəfindən belə addımın atılmasını suveren Azərbaycan dövlətinə qarşı qeyri-dost münasibət, onun daxili işlərinə kobud müdaxilə cəhdi, beynəlxalq hüququn fundamental prinsiplərinə böyük hörmətsizlik nümunəsi hesab edirik. Eləcə də məlum qətnamədə qardaş Türkiyəyə qarşı əsassız iddiaların yer almasına, Dağlıq Qarabağ problemindən Türkiyə Respublikasının əleyhinə çirkin təzyiq kampaniyasında vasitə kimi istifadə edilməsinə dərin etirazımızı bildiririk.

Bu qətnamə erməni lobbisinin təsiri altında hərəkət edərək Fransanın maraqlarını və beynəlxalq hüququ heçə sayan bir qrup senatorun Azərbaycana uğursuz təzyiq göstərmək cəhdindən başqa bir şey deyil. Qətnaməyə səs verənlər, görünür, Fransanın ATƏT-in Minsk Qrupunun həmsədri olduğunu unudur və ya öz ölkələrini artıq bu statusda görmürlər.

Fransa Senatına onu da xatırlatmaq istəyirik ki, məhz sizin ölkəniz BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi, Azərbaycanın ərazi bütövlüyünü tanıyan və Ermənistan qoşunlarının işğal olunmuş torpaqlardan qeyd-şərtsiz çıxarılmasını tələb edən məlum 4 qətnamənin qəbul edilməsində iştirak edib. Təəssüf hissi ilə bildiririk ki, 30 ilə yaxın müddət ərzində Fransanın da daxil olduğu beynəlxalq vasitəçilər bütün zəruri hüquqi bazanın olmasına rəğmən, Ermənistan tərəfindən işğala məruz qalmış Azərbaycan torpaqlarının azad edilməsi, bir milyona yaxın məcburi köçkünün öz evlərinə qaytarılması üçün üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsi istiqamətində zəruri addımları atmadılar və ya atmaq istəmədilər. Belə olan halda Azərbaycanın hüquq çərçivəsində beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyünü bərpa və təcavüzkar Ermənistanı sülhə məcbur etməsinə qərəzli münasibət sərgiləmək, Azərbaycana və Türkiyəyə qarşı heç bir əsası olmayan ittihamlar irəli sürmək Fransanın bitərəf qalmalı olan vasitəçilik missiyası ilə qətiyyən uzlaşmır, onun ATƏT-in Minsk Qrupunun həmsədri kimi fəaliyyətinə Azərbaycan cəmiyyətinin inamını kökündən sarsıdır.

Sözügedən qətnamənin qəbulu bəzi Qərb siyasi dairələrində islamafob meyillərin və özlərinin təşviq etdikləri dəyərləri, demokratiya prinsiplərini və qanunları pozmaq ənənənəsinin növbəti təzahürü olmaqla, Fransanı beynəlxalq ictimaiyyət qarşısında nüfuzdan salmağa xidmət edir. Bu gün dünya Azərbaycanın azad olunan ərazilərində 30 il ərzində işğalçıların törədikləri vəhşiliklərin şahidi olur və Senatın həmin vəhşilikləri törədənlərin korkoranə müdafiəsinə qaxması Fransanın söykəndiyi humanizm dəyərləri ilə bir araya sığmır. Digər tərəfdən, Ermənistanın özünün belə tanımadığı qondarma Dağlıq Qarabağ rejiminin tör-töküntülərini müstəqil dövlət kimi tanımaq çağırışı ilə ermənidən artıq erməni olmağa çalışan Fransa Senatı özünü gülünc vəziyyətə saldı.

Yaxşı olardı ki, Fransa Senatı öz səylərini Minsk Qrupunun həmsədrliyi çərçivəsində bu ölkəyə verilən vasitəçilik mandatının sərhədləri ilə məhdudlaşdırsın və tarixə qovuşmaqda olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yenidən alovlanmasını təşviq edən məsuliyyətsiz bəyanatlardan və təhrikçi çağırışlardan çəkinsin.

Sonda onu da vurğulamağı lazım bilirik ki, görünür Fransa Senatı qəbul etdiyi qətnamənin Azərbaycan - Fransa əlaqələrinə mənfi təsir göstərəcəyini, habelə Cənubi Qafqazda sülhə və əmin-amanlığa növbəti zərbə vuracağını axıra qədər qiymətləndirməmişdir. Fransalı senatorlar unutmamalıdırlar ki, Azərbaycan beynəlxalq hüquqa, BMT Nizamnaməsinə və noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistanın baş naziri tərəfindən imzalanmış üçtərəfli bəyanata uyğun olaraq ərazi bütövlüyünü bərpa etməsi prosesinin qarşısını bu cür məkrli üsullarla almaq mümkün olmayacaqdır.

# Euronews: Qafqazın Xirosiması: AĞDAM!




Euronews kanalı Ermənistanın 30 illik işğalından azad olunmuş Ağdam şəhərindən reportaj hazırlayıb. SİA-nın verdiyi məlumata görə, kanal reportaja heç tərəddüd etmədən “”Qafqazın Xirosiması” - Ağdam” adını verib. Müxbir Ağdam sakinindən şəhər haqqında soruşur, sakin bildirir ki, şəhər ermənilər tərəfində o qədər dağıdılıb ki, kimsə nəinki öz evini, hətta yaşadığı küçəni belə tapmaqda çətinlik çəkir.

Qeyd olunur ki, Ağdamın yenidən qurulmasına illər sərf olunacaq, amma bundan əvvəl şəhərdə və şəhər ətrafında erməni silahlıları tərəfindən basdırılmış yüz minlərlə mina zərərsizləşdirilməlidir. Azərbaycan hökuməti təkcə Ağdam şəhərinin deyil, bütün işğaldan azad edilmiş rayonların dirçəldilməsinə ilkin olaraq 6 milyard dollar vəsaitin ayrılmasını nəzərdə tutub.

# Moldova mətbuatı Azərbaycanın Fransa Senatının qərəzli qətnaməsinə etirazından yazır


KYIVSTAR 82% 10:25

Парламент Азербайджана призвал исключить Францию из Минской группы ОБСЕ

26 ноября 2020 г., 13:20:00 306 0

Парламент Азербайджана предложил правительству республики обратиться в Организацию по безопасности и сотрудничеству в Европе для отзыва Франции из числа сопредседателей Минской группы ОБСЕ, сообщает eNews.

Милли меджлис также выразил протест французскому сенату из-за принятой накануне резолюции по Нагорному Карабаху и призвал

Moldova mətbuatı Fransa Senatında qondarma “Dağlıq Qarabağ respublikası”nın tanınmasına dair qətnamə layihəsinin qəbulu ilə bağlı Azərbaycanın etirazına dair məqalələr dərc edilib.

AZƏRTAC xəbər verir ki, Moldovanın “NOİ.md”, “Disug.md”, “Point.md”, “eNews.md”, “AVA.md”, “İPN.md” və digər informasiya portallarında dərc olunan məqalələrdə Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin Fransa Senatında qondarma “Dağlıq Qarabağ respublikası”nın tanınmasına dair qətnamə layihəsinin qəbuluna münasibətinə, Milli Məclisdə bununla bağlı müzakirə olunan məsələlərə diqqət çəkilib.

Məqalələrdə H.Hacıyevə istinadla qeyd edilir: “Bu qətnamə Azərbaycan üçün adi kağız parçasından başqa bir şey deyil. Dar siyasi ambisiyalar naminə qəbul olunmuş bu kağız parçası beynəlxalq hüquq normaları, BMT Nizamnaməsi və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin kobudcasına pozulması ilə yanaşı, Fransanın istər Minsk qrupunun həmsədr ölkəsi, istərsə də BMT TŞ-nin daimi üzvü kimi məramı və obyektiv fəaliyyəti ilə bağlı ciddi suallar doğurur”. Bundan başqa, yazılarda Milli Məclisdə Fransa Senatının qəbul etdiyi qətnaməyə etiraz bəyanatının qəbul olunması, Fransanın Minsk qrupunun həmsədrliyindən uzaqlaşdırılması kimi fikirlər də yer alıb.

# Türkiyə parlamentinin siyasi partiya qrupları Fransa Senatının Dağlıq Qarabağla bağlı qərəzli qətnaməsini pisləyən bəyanat yayıblar

*Türkiyənin Ədalət və İnkişaf, Cümhuriyyət Xalq, Milliyyətçi Hərəkat və İYİ partiyalarının Türkiyə Böyük Millət Məclisindəki qrupları Fransa Senatının Dağlıq Qarabağla bağlı qərəzli qətnaməsini pisləyən ortaq bəyanat yayıblar.*



AZƏRTAC xəbər verir ki, siyasi partiyaların birgə imzası ilə yayılan bəyanatda Fransa Senatının beynəlxalq hüquqa, əxlaqa və ədalətə zidd olaraq Dağlıq Qarabağla bağlı noyabrın 25-də qətnamə qəbul etməsi şiddətlə qınanılıb. Qeyd olunub ki, Fransa Senatı özünü görməməzliyə vursa da, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrinə əsasən Dağlıq Qarabağ Azərbaycan torpağıdır və Fransa Senatının qətnaməsi beynəlxalq hüquqa görə yox dərəcəsindədir. Dağlıq Qarabağın Azərbaycan torpağı olduğu Fransa Prezidenti Emmanuel Makron tərəfindən bir neçə gün əvvəl bəyan edilib. Qondarma “Dağlıq Qarabağ respublikası” Ermənistan tərəfindən belə tanınmadığı halda, Fransa Senatı həqiqətdən uzaq qərar qəbul edir.

Birgə bəyanatda vurğulanıb ki, otuz ilə yaxın müddətdə Ermənistanın işğal altında saxladığı Azərbaycan torpaqları Azərbaycan Ordusunun son aylarda qəhrəmancasına apardığı mübarizə sayəsində işğaldan azad edilib. Türkiyə olaraq bu haqlı mübarizəsində və şanlı qələbənin hər anında Azərbaycanın yanında olduğumuz üçün qürur duyuruq. Azərbaycan Ordusunun BMT Nizamnaməsinin 51-ci maddəsinə əsasən özünümüdafiə hüququna əsaslanaraq həyata keçirdiyi əməliyyat nəticəsində əsl sahiblərinə qaytarılan Azərbaycan torpaqlarının əbədi olaraq Azərbaycanın hakimiyyəti altında qalacağına heç bir şübhəmiz yoxdur.

Bildirilib ki, ATƏT-in Minsk qrupunun həmsədri olmasına baxmayaraq, 30 ilə yaxındır Ermənistanın işğalına göz yuman, bitərəf qalmalı olduğu halda işğalçı Ermənistanın yanında yer alan, Azərbaycanın haqqına və hüququna laqeyd qalan, BMT-nin bütün qərarlarını heçə sayan, son zamanlar Türkiyəyə qarşı düşmənçilikdə sərhəd tanımayan Fransanın bu addımı bizim üçün təəccüb doğurmur. Bu qərarla Fransa hökumətinə çağırış edən Senatın son dərəcə ciddi əqli böhran yaşadığını düşünür, anlayışlı Fransa xalqının daha ağlabatan, ağlı başında və hər şeydən vacib beynəlxalq hüquqa hörmətlə yanaşan təmsilçilərə layiq olduğunu düşünürük. Sözügedən qərarın Fransa Senatında səs çoxluğu ilə qəbul edilməsi isə Fransanın gələcəyi ilə bağlı qayğılarımızın artmasına səbəb olub.

Bəyanatda Fransa hökumətinin beynəlxalq hüquqa, haqqa və bölgədəki həqiqətlərlə uyğun olmayan, ağlasığmaz əsassız iddiaları, xəyali iftiraları və qeyri-ciddi təklifləri ehtiva edən bu qərarı diqqətə almayacağına və sağlam düşüncə ilə hərəkət edəcəyinə əminlik ifadə olunub. Bu cür qərəzli və təxribat xarakterli cəhdlərin bölgə ilə yanaşı, dünyaya da sülh və sabitlik gətirməyəcəyi xatırladılıb, Türkiyə və Azərbaycan əleyhinə bu cür addımlar atanların Türkiyə Böyük Millət Məclisi və Türk milləti adından qınandığı ifadə olunub.

# Şuşa şəhərinə içməli suyun verilməsinə başlanılıb



Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan ordusunun işğaldan azad etdiyi Şuşa şəhərinə içməli suyun verilməsinə başlanılıb. Bu barədə SİA-ya “Azərsu” ASC-dən bildiriblər. Qeyd edilib ki, dövlət başçısının xüsusi tapşırığına əsasən, işğaldan azad edilmiş ərazilərdə, o cümlədən Şuşada həyat əhəmiyyətli infrastrukturların, o cümlədən içməli su təchizatı sistemlərinin bərpası işləri həyata keçirilir. Bununla əlaqədar “Azərsu”yun mütəxəssislərindən ibarət qrup Şuşa şəhərinə və işğaldan azad olunmuş digər rayonlara ezam olunub. Mütəxəssislər su mənbələri, magistral xətlər, anbarlar və paylayıcı şəbəkələrin mövcud vəziyyətini araşdırıb. Şuşa şəhəri işğaldan azad olunduqdan sonra şəhərə içməli suyun verilməsi tam dayanıb. Belə ki, düşmən təfəl şəhəri tərk edərkən Şuşanı içməli su ilə təmin edən magistral su kəmərini də sıradan çıxarıb. Yaranmış içməli su probleminin həlli məqsədilə mütəxəssislər Şuşada araşdırmaya başlayıb.

İlkin olaraq Daşaltı kəndinin içməli su təchizatı sistemi araşdırılıb. Aparılan təftiş işləri nəticəsində su təchizatı sistemində baş vermiş qəzalar aradan qaldırılıb və noyabrın 12-də kəndə suyun verilişi təmin edilib. Eyni zamanda, Şuşa şəhərini müvəqqəti olaraq maşına su ilə təmin etmək üçün Daşaltı kəndində sudoldurucu məntəqə yaradılıb.

Bununla paralel Müdafiə Nazirliyinin müvafiq bölmələri ilə birgə təhlükəsizlik tədbirləri görülməklə diametri 325 mm olan Kiçik Kirs-Şuşa magistral su kəmərinin texniki vəziyyəti təftiş olunub. Məlum olub ki, hərbi əməliyyatlar zamanı mərmi partlayışları nəticəsində şəhəri içməli su ilə təmin edən 9,4 km uzunluğunda polad borulardan ibarət magistral su kəməri üzərində 12 nöqtədə böyük qəzalar var. Qəzaların qısa müddətdə aradan qaldırılması üçün lazım olan texniki avadanlıq və mal-material tələbatı müəyyən edilib, həmçinin “Azərsu” ASC tərəfindən əlavə mühəndis-mütəxəssis heyəti, qəza-bərpa briqadası Şuşa şəhərinə ezam edilib.

Qəza-bərpa işlərinə cəlb olunmuş texnikanın maneəsiz hərəkəti üçün kəmərin marşrutu boyu mümkün olan yerlərdə istismar yolu salınıb, texnikaların hərəkətinin mümkün olmadığı yerlərə isə mal-materiallar əllə daşınaraq təmir işlərinə başlanılıb. Mürəkkəb relyefli ərazidə, meşə və dağ şəraitində magistral su kəmərinin qəzalı hissələri təmir edilib və noyabrın 25-də Şuşa şəhərinə suyun verilişi təmin olunub. Şuşaya ezam edilmiş “Azərsu”yun Planlaşdırma və layihələndirmə departamentinin rəisi Bahadur Kəngərli şəhərdə görülən işlər barədə məlumat verərək bildirib ki, hazırda mərmi partlayışları səbəbindən Şuşa şəhərinin daxili paylayıcı şəbəkəsinin qəzalı vəziyyətə düşmüş hissələri hazırda təmir edilir, şəbəkədə hidravliki tənzimləmə işləri aparılır. Görülmüş işlər nəticəsində şəhərin böyük bir hissəsi içməli su ilə təmin olunub. Relyef baxımından yüksəklikdə yerləşən əraziləri su ilə təmin edən nasosları işə salmaq üçün isə anbar kompleksində generator quraşdırılacaq.

# Nikol Paşinyan: “Hakimiyyəti əlimizdən almalarına imkan verməriк”



Milli ləyaqəti qorumaq vacibdir, xüsusilə Ermənistanın indiki çətin vəziyyətində, zərbə altında qaldığı zamanda. SİA Ermənistana məxsus armenianeport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri Ermənistanın baş naziri Nikol Paşinyan xalqa müraciətində deyib. “İndi ən başlıcası ölkədəki daxili sabitliyi təmin etmək və imzalanmış bəyanatın bəndlərini yerinə yetirməkdir”, deyə Nikol Paşinyan bəyan edib.

Nikol Paşinyanın müraciəti zamanı deyib ki, imzalanan bəyanata görə, Ermənistan qüvvələrini Kəlbəcər bölgəsinin təhvil verilməsi nəticəsində yaranan Azərbaycanla yeni sərhəddə yerləşdirməlidir. Qeyd edib ki, sərhədlər yalnız Rusiya sülhməramlılarının deyil, həm də Azərbaycan hərbçilərinin köməyi ilə nizamlanır.

Nikol Paşinyan vurğulayıb ki, müharibə zamanı dövlət strukturlarının yalan danışdıqları üçün xalqın rəsmi məlumatlara inamını itirməsi barədə çox danışılır. “Bu doğru deyil. Mən və dövlət qurumları həmişə döyüş meydanında baş verənlər barədə məlumat vermişik. Şuşada, Hadrutda döyüşlər olduğunu deməsdikmi? Başqa bir şəkildə məlumat ötürməliydik?”, deyə Nikol Paşinyan sual edib.

Eyni zamanda, Nikol Paşinyan daxili qüvvələri hakimiyyətə qarşı dezinformasiya yaymaqda günahlandırıb. “Onlar Ermənistanda hakimiyyət çatışmazlığı, yoxluğu görünüşü yaratmağa çalışırlar. İqtidara dönmələrini təmin etmək istəyirlər. Buna imkan verməriк. Hakimiyyəti əlimizdə saxladığımıza görə deyil, xalq bunu istəmədiyinə görə, hakimiyyəti əlimizdən almalarına imkan verməriк “, deyə Nikol Paşinyan bir daha utanmadan xalqın adından danışıb. Ermənistanın baş naziri siyasi qüvvələrə də öz hədə mesajlarını verib. “Siyasi qüvvələr Qarabağdakı müharibənin bitməsini öz siyasi məqsədləri üçün istifadə etmək istəyirlər. İqtidara qanla gəlmək istəyirlər. Xaosa yol verməyəcəyik”, deyə Paşinyan bildirib.

# Ərəb mətbuatı ermənilərin Kəlbəcərdə evləri və meşələri yandırmasından yazıb



**Ərəb KİV-lərində ermənilərin Azərbaycanın Kəlbəcər rayonunda evləri və meşələri yandırması barədə xəbərlər dərc edilib.**

**AZƏRTAC xəbər verir ki, “Əl-Ərəbiyyə” telekanalının saytında yayılmış materialda noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış bəyanatdan sonra azad edilən ərazilərin dağıdıldığı, Kəlbəcərdə 30 ilə yaxın müddətdə yaşamış ermənilərin tərk etdikləri evləri və meşələri yandırması qeyd olunur. Vurğulanır ki, Ağdam rayonunda işğalçılar tərəfindən xaraba qoyulmuş məscidi ziyarət edən Azərbaycan Prezidenti İlham Əliyev bütün mülki obyektlərin və infrastrukturun tezliklə bərpa ediləcəyini bildirib.**

**“Arabnews” qəzetində dərc edilmiş məqalədə də Azərbaycan Ordusunun Kəlbəcərə daxil olması, bundan əvvəl azərbaycanlıların humanizm prinsipindən çıxış edərək daha 10 gün möhlət verdikləri ermənilərin evləri və meşələri yandırdıqları bildirilir. Diqqətə çatdırılır ki, Azərbaycan Prezidenti İlham Əliyev xalqa son müraciətində Ermənistanın terrorçu dövlət olduğunu bəyan edib. Əlavə edib ki, mülki insanlara qarşı soyqırımı, tarixi abidələrin məhv edilməsi, meşələrin yandırılması və ağacların kəsilməsi, su kəmərlərinin və digər infrastrukturun sıradan çıxarılması buna əyani sübutdur.**

**Misirin “Əl-Vəsilə”, “Nile1”, “Elghad” informasiya portalları və “Asiaelyoum” və İordaniyanın “Nayrouz” informasiya agentlikləri də Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin Kəlbəcərin işğaldan azad edilməsi münasibətilə xalqa müraciəti barədə xəbərlər yayıblar.**

# Türkiyənin Ombudsman təsisatı Ermənistanın Azərbaycana qarşı müharibə cinayətlərinə dair xüsusi hesabat hazırlayıb












***Türkiyə Respublikasının Ombudsman təsisatı Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi müharibə cinayətləri ilə bağlı xüsusi hesabat hazırlayıb.***

AZƏRTAC xəbər verir ki, "Ermənistan-Azərbaycan müharibəsində Ermənistan silahlı qüvvələri tərəfindən insan haqlarının pozulması ilə bağlı hesabat" adı ilə təqdim olunan sənəd təcavüzkar Ermənistanın 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək Azərbaycanda dinc əhaliyə, yaşayış məskənlərinə və mülki infrastruktura qarşı həyata keçirdiyi hərbi təcavüzə dair faktlar, o cümlədən raket və ağır artilleriya zərbələri nəticəsində yaranmış tələfat və dağıntılar əksini tapıb.

Türkiyə Respublikasının Baş Ombudsmanı Şərəf Malkoçun hesabata yazdığı təqdimatda Birləşmiş Millətlər Təşkilatı başda olmaqla insan haqlarını qorumaq məqsədilə təsis edilən beynəlxalq təşkilatların missiyası xatırlanır. Diqqətə çatdırır ki, təcavüzkar Ermənistan dünyanın gözü qarşısında Azərbaycana qarşı işğalçılıq siyasəti həyata keçirib və bu azmış kimi, davamlı olaraq təxribatlar törədərək yeni ərazi iddiaları irəli sürüb. Sentyabrın 27-də başlayan müharibənin və hərbi əməliyyatlar zamanı Azərbaycanın dinc əhalisinə qarşı törədilən müharibə cinayətlərinin birbaşa məsuliyyətini Ermənistan dövləti daşıyır. Ermənistan silahlı qüvvələrinin mülki əhaliyə qarşı məqsədyönlü hücumları nəticəsində Azərbaycanda uşaqlar, qadınlar, yaşlılar daxil olmaqla 94 dinc sakinin öldürüldüyü, 400 nəfərdən çox günahsız şəxsin yaralandığı xatırlanır. Vurğulanır ki, insan haqlarının qorunması ilə məşğul olan beynəlxalq təşkilatlar bu bəşəri cinayətə səssiz qalmalıdırlar.

Hesabatın "Dağlıq Qarabağ məsələsi" adlı bölməsində tarixi faktlar və rəsmi sənədlər təqdim olunur. Bu bölmədə ermənilərin regiona sonradan köçürülməsi ilə bağlı məlumat da yer alıb. Azərbaycan torpaqlarının hesabına indiki Ermənistan dövlətinin yaradılması, eləcə də bu ölkənin əzəli sakinləri olan azərbaycanlılara qarşı yürüdülən etnik təmizləmə siyasəti bu bölmədə öz əksini tapıb. Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti həyata keçirdiyi, Dağlıq Qarabağı və ətrafındakı yeddi rayonu zəbt etdiyi diqqətə çatdırılır. Münaqişənin həlli üçün beynəlxalq məsuliyyət daşıyan ATƏT-in Minsk qrupunun fəaliyyətinin heç bir nəticə vermədiyi vurğulanır.

"Münaqişə bölgəsindəki gündəlik vəziyyət" bölməsində Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisini və infrastrukturunu hədəfə alması barədə məlumat verilir. Burada ballistik raket və artilleriya zərbələri ilə hədəfə alınan dinc insanların hücum nəticəsində hansı acınacaqlı vəziyyətə düşmələri orijinal fotolarla təqdim olunur. Dağıntı və tələfatın göstəriciləri Ermənistanın müharibə cinayətləri barədə aydın təsəvvür yaradır. Bildirilir ki, müharibə günlərində Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində 3410 fərdi evə, 120 çoxmərtəbəli binaya və 512 mülki obyektə ciddi ziyan dəyib.

"Hücumların insan haqlarının pozulması aspektindən dəyərləndirilməsi" bölməsində 1949-cu ilin Cenevrə Konvensiyası, 1977-ci il tarixli eyni mahiyyətli protokollar, humanizm prinsipləri xatırladılır. Göstərilir ki, təcavüzkar Ermənistan üç dəfə atəşkəs barədə razılaşmanı pozaraq Azərbaycanın dinc əhalisinə qarşı dağıntı və tələfatla nəticələnən hücumlar edib. Dağıntı və tələfatın miqyası, habelə hücumların edilməsi vaxtı deməyə əsas verir ki, bütün bu hadisələr məqsədli və planlı şəkildə törədilən cinayətlərdir.

Hesabatın nəticə hissəsində Ermənistan silahlı qüvvələrinin sentyabrın 27-dən noyabrın 10-dək Azərbaycanın dinc əhalisini, yaşayış məskənlərini və mülki infrastrukturunu hədəf alan raket və artilleriya hücumlarının xronologiyası, eləcə də həmin zaman kəsiyində qətlə yetirilən və yaralanan insanların siyahısı təqdim olunub. Siyahıda qətlə yetirilən şəxslərin ad, soyad və ata adları, yaşları, onların harada və hansı formalı hücum nəticəsində öldürülmələri aydın şəkildə göstərilib.

Hesabatın əhatə dairəsi, əlavə edilən fotolar və infoqrafika üslubunda məlumatlar oxucuda ilk baxışdan mövzu ilə bağlı aydın təsəvvür yaradır. Hesabat təkcə beynəlxalq təşkilatlar və məhkəmə orqanları üçün deyil, eyni zamanda, tarix, politologiya, münaqişələrin təhlili, terror, müharibə, hərbi cinayətlər və s. sahələr üzrə araşdırmaçılar üçün də əyani vəsaitdir.

Bildirilir ki, hesabat bu həftədən etibarən Avropa İttifaqı ölkələrinin insan haqları komissiyalarına, eləcə də Türkiyədə və digər dövlətlərdə insan haqları ilə məşğul olan qurumlara göndəriləcək.

Xatırladaq ki, Türkiyə Respublikasının Baş Ombudsmanı Şərəf Malkoçun başçılıq etdiyi nümayəndə heyəti cari ilin oktyabrında Azərbaycanda səfərdə olub. Nümayəndə heyətinin üzvləri Gəncədə, Ermənistan silahlı qüvvələrinin raket hücumları nəticəsində dağılmış yerlərdə olub, yaralanan insanlarla görüşüb, törədilən müharibə cinayətinin fəsadlarını öz gözləri ilə görüblər.

# Məktəbləri minalayan ermənilər

**Onlar üçün bir məqsəd var - qadın, uşaq, kim olursa-olsun, azərbaycanlıdırsa, öldürülməlidir, qətlə yetirilməlidir**

Rusiya sülhməramlılarının Qarabağdakı kontingenti daxilində fəaliyyət göstərən minaaxtaranları Xankəndindəki bütün ümumtəhsil məktəblərinin minalardan təmizləndiyini məruzə ediblər. Hətta bu barədə "Rossiya-24" kanalında Rusiya Federasiyasının Müdafiə Nazirliyinin rəsmi nümayəndəsi, general-mayor İqor Konaşenkov da ənənəvi məruzəsində qeyd etdi. Lakin həmin məruzədən yaranan bir sual - kim və nəyə görə məktəbləri minalamışdı sualı özü-özlüyündə cavabını tapır: əlbəttə ki, erməni terrorçuları! Onlar qaçdıqları ərazilərdə hər yeri - evləri, sosial infrastruktur müəssisələrini, hətta məktəbləri belə ya minalayır, ya yandırırlar. Onlar üçün bir məqsəd var - qadın, uşaq, kim olursa-olsun, azərbaycanlıdırsa, öldürülməlidir, qətlə yetirilməlidir.

**Onların çirkin məqsədləri bundan ibarətdir ki, torpaqların həqiqi sahibləri geri dönərkən, dağıdılmış, viran qoyulmuş yerləri bərpa etməyə daha çox vaxt sərf etsinlər.**

Amma maraqlıdır, görəsən rusiyalı sülhməramlılar məktəblərdən çıxardığı minaları zərərsizləşdirərkən heç olmasa bu barədə də düşünüblərmi? Ümid edək ki, düşünüblər. Misal üçün, düşünüblər ki, "yüksək mədəniyyətə" malik, "dünyanın ilk xristianları" olmuş erməni terrorçuları işğal etdikləri əraziləri rüsvayçılıqla tərk edərkən bütün vəhşilik vasitələrinə əl atırlar. Onların çirkin məqsədləri bundan ibarətdir ki, torpaqların həqiqi sahibləri geri dönərkən, dağıdılmış, viran qoyulmuş yerləri bərpa etməyə daha çox vaxt sərf etsinlər.




Əslində biz burada erməni faşistləri ilə alman faşizminin ən optimal bənzərliyi nümunə də gətirə bilərik. Bütün dünya agahdır ki, alman faşistləri SSRİ-nin işğal olunmuş ərazilərini tərk edərkən, əllərinə düşən hər şeyi özləri ilə Almaniyaya aparır, apara bilmədiklərini isə dağıdır, torpaqların, müxtəlif obyektlərin hər qarışını yandırır, minalayırdı.

**Çox maraqlıdır, ermənilərə yaxın xarici KİV-lər ermənilərin mülki əhalinin yaşayacağı əraziləri minalamaları, dağıdıb-yandırmaları, müxtəlif infrastrukturları təməlinə qədər söküb aparmaları barədə də yazırlarmı, yazacaqlarmı?**

Ermənilərin özlərinə məxsus və onlara yaxın xarici KİV-lər isə bəhs etdiyimiz minalama faktını kənara qoyub, "məzlum erməni xalqı", "ermənilərin dəhşətli əzabları" ətrafında bütün dünyaya inləyir, car çəkirdilər, bu gün də həmin məsələ davam edir. Ancaq çox maraqlıdır ki, ermənilərə yaxın xarici KİV-lər bununla yanaşı, ermənilərin mülki əhalinin yaşayacağı əraziləri minalamaları, dağıdıb-yandırmaları, evləri, müxtəlif infrastrukturları təməlinə qədər söküb aparmaları barədə də yazırlarmı, yazacaqlarmı? Kəlbəcərdə erməni məktəb direktorunun məktəbə od-vurub yandırması informasiyasını verəcəklərmi? Ağdamda, Laçında və s. ərazilərimizdəki vandallıq aktları barədə dünyaya car çəkəcəklərmi? Əlbəttə ki, yox. Onda da başlayacaqlar ki, "bu tamam başqa məsələdir", "müharibənin görünməyən tərəfləridir", "müharibənin əks-sədasıdır" və s. bəhanələr...

Ancaq fakt budur ki, Vətən müharibəsi dövründə Azərbaycan müharibəyə aid olan hər kəsi dəqiq şəkildə iki yerə ayırıb - bizlərə və onlara...

**Bizlər və onlar**

Biz - həmin insanlarıq ki, ədalət tərəfdarı kimi çıxış etmişik, xalqların birliyini dəstəkləmişik, sülh tərəfdarı olmuşuq, torpaqların bərpasını arzulamışıq, kimlərin hansı konfessiyaya aid olmasını heç vaxt müzakirə etməmişik, özümüzə aid olanlarla yanaşı digər xalqların tarixi abidələrini, milli folklorunu qoruyub-saxlamışıq.

Onlar - müasir dünyanın yeni barbarları, özlərinin "mədəni alilikləri" barədə səs-küylər qaldıran, "minillik tarixlərini", "spartalılardan da qədim döyüşkən xalq" olduqlarını zorla, yalanla dünya ictimaiyyətinə sırımağa cəhd edənlərdir. Hansı ki, uduzduqları müharibədən sonra meşələri qırıb-çatdılar, hər yeri minaladılar, hətta unitazlarını belə özləri ilə apardılar.

Onların "faciəsi" belə oldu: torpağı oğurlaya bilmədik, onda əlimizə düşən hər nə varsa oğurlayaq, hətta boş bağlanmış "qaykanı", kənara atılmış tikinti daşını yük maşınına yükləyib, aparaq ki, azərbaycanlılara qalmasın.

Nə qədər gülünc və həqiqətən də iyrənc bir nümunədir, illər əvvəl azərbaycanlılara məxsus hər şeyi zəbt et, sonra da "mənimdir, azərbaycanlılara qalmasın" deyib həyasızcasına, riyakarcasına daşıyıb-aparmaq, apara bilmədiklərini isə yandırmaq və minalamaq. Dağıdılmış məzarıstanları, meyvə bağlarını, yolları və s...

**Tarix isə unudulmur, yazılır...**

Əslində bu rəsmi İrəvanın iddia etdiyi kimi "müvəqqəti geri çəkilmə əməliyyatı" deyil, bu dibinə qədər məhv edilmiş, burnu ovulmuş, dişləri sındırılmış düşmən ordusunun, eləcə də bizə düşmən münasibətini saxlamaqda davam edən ermənilərin öz təbirlərincə "öcüdür", "qisasıdır". Və təəssüf ki, bizim bax bu cür mənəviyyatsız, vəhşi, insanlıq düşüncəsindən kənar düşmənlərimiz olub və var!

İndi Rusiyanın sülhməramlıları da düşünməyə məhkumdurlar ki, axı evləri, məktəbləri, meyvə bağlarını, qəbirləri, yolları, bulaqları minalamaqla, yandırmaqla orta əsr təfəkküründən bu yana inkişaf etməmiş ermənilər nə qazanacaqlar? Əlbəttə ki, heç nə, sadəcə özləri haqqında uydurulmuş miflər məhv olacaq, necə ki, məhv də olub. Azərbaycanlılar isə dağıdılmış miflərin üzərində yeni həyat, sülh, bərqərarlıq quracaqlar. Yəni hər şey bütün çılpaqlığı ilə dünyanın gözləri qarşısında baş verir. Tarix isə unudulmur, yazılır...

***Rövşən RƏSULOV***

P.S. Ermənilərin murdar, qeyri-insani əməllərinə isə onların sağalmaz xəstəlikləri səbəb olur - vəhşilərə od qoyan məğlubiyyət sindromu

# "Fransa və digərləri anlamalıdır ki..."

***"Azərbaycan 44 gün davam edən Vətən müharibəsində beynəlxalq hüquqa, BMT-nin Nizamnaməsinə uyğun olaraq özünü müdafiə edib, öz ərazi bütövlüyünün təmin olunması istiqamətində müvafiq addımlar atıb. Ölkəmizin haqq işi qələbəmizlə nəticələnib. Görünür, Azərbaycanın beynəlxalq hüquq normaları əsasında öz haqqını bərpa etməsi işğalçı Ermənistanın havadarlarını ciddi şəkildə narahat edir. Bunlardan biri də Fransadır". Bunu SİA-ya millət vəkili Nəsib Məhəmməliyev deyib.***



Deputatın sözlərinə görə, bir qrup ermənipərəst, anti-türk və anti-Azərbaycan əhval-ruhiyyəli senator tərəfindən təklif edilən və Fransa Senatında qəbul edilən "Dağlıq Qarabağ Respublikasının tanınmasının labüdlüyü" adlı qətnamə beynəlxalq hüquqa tamamilə ziddir: "Qətnamə Azərbaycan Respublikasının beynəlxalq səviyyədə, o cümlədən elə Fransa Respublikasının özü tərəfindən tanınan ərazi bütövlüyünə və beynəlxalq hüququn əsas prinsiplərinə açıq hörmətsizlik deməkdir. Bu sənəd BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsinin həlli və işğal edilmiş Azərbaycan torpaqlarının qeyd-şərtsiz boşaldılması ilə bağlı qəbul etdiyi 4 qətnamənin heçə sayılmasıdır. Nəzərə alsaq ki, həmin qətnamələrin qəbul edilməsinə Fransa da səs verib, Senatın bu addımı öz-özünü inkar mənası verir. Təbii ki, bu sənəd Fransadakı erməni lobbisi və ermənipərəst qüvvələrin Senata təzyiq və təsirinin nəticəsidir. Amma ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərindən biri olaraq Fransanın Senatı tərəfindən belə qərəzli mövqe ortaya qoyulması qəbuledilməzdir. Bu sənədin qəbul olunması ilə Fransanın həmsədr kimi neytrallığı pozulmuş olur.

Bilirsiniz ki, məsələ ilə bağlı Milli Məclis Fransa Senatının qərarı ilə bağlı etiraz bəyanatı qəbul edib. Azərbaycan parlamenti haqlı olaraq Fransa Senatına qarşı kəskin etirazını bildirib. Qəbul olunmuş bəyanatda Azərbaycan hökumətinə çağırış edilir ki, Fransanın ATƏT-in Minsk qrupunun həmsədrliyindən geri çağırılması üçün ATƏT-in rəhbərliyinə müraciət olunsun. Eyni zamanda, Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında mövcud olan siyasi münasibətlərə yenidən baxılsın. Bəyanatda həmçinin, Azərbaycanla Fransa arasında mövcud olan iqtisadi əlaqələr dərindən təhlil edilərək, lazımi tədbirlərin görülməsi də tövsiyə edilir. Bütün bunlar çox doğru addımlardır. Fransa və digərləri anlamalıdır ki, müstəqil Azərbaycan dövləti güclüdür və onunla diqtə dili ilə danışmaq mümkün deyil".

***Ceyhun Rasimoğlu***

# Azərbaycan qisası qiyamətə saxlamadı - Koçaryan-Sarqsyan ordusu məhv edildi

***Ermənistanda hakimiyyət dəyişiklikləri bir qayda olaraq etirazlarla müşayiət olunub. 1997-ci ildə Levon Ter-Petrosyan istefaya göndərilib, yerinə Robert Koçaryan gətirilib. Onun prezidentliyi dövründə 1998-ci il oktyabrın 27-də parlamentə silahlı hücum olub. Dövlət və hökumət adamları qətlə yetirilib.***




2008-ci ilin fevralında keçirilən prezident seçkisinin nəticələrinə etiraz edənləri Koçaryan silahla qarşıladı. 10-dan çox aksiyaçı öldürüldü, çoxlu sayda etirazçı yaralandı. Onda prezidentin postu uğrunda mübarizə Serj Sarqsyanla Levon Ter-Petrosyan arasında getmişdi. Koçaryanın aksiyalara hərbi müdaxiləsi nəticəsində Sarqsyan qalib elan olundu.

2018-ci ildə yeni konstitusiyaya əsasən, Ermənistan prezident üsul-idarəsindən parlamentli respublikaya keçdi. Həmin vaxt Sarqsyan yeni qanunla baş nazir oldu. Ancaq etiraz aksiyaları fonunda onun hökumət başçılığı heç 30 gün sürmədi.

Başqa sözlə, ölkədə hakimiyyət dəyişikliyi 2018-ci ilin aprelində yeni etirazlarla müşayiət edildi.

Qısa xatırlatmadan məlum olur ki, bu ölkədə qanunun aliliyi heç vaxt təmin olunmayıb. Bu, Ermənistanda dövlət quruculuğunun olmadığının göstəricisidir.

Bu ölkənin bir-birini əvəzləyən rəhbərliyi bir qayda olaraq "Ermənistanın güclü, qüdrətli ordusunun" olduğunu bildirib, onun "qəhrəmanlıqlarından" danışıblar.

Koçaryanın, Sarqsyanın ordusu harada və hansı "qəhrəmanlığı" edib?

Təbii ki, onların "qəhrəmanlıqları" Rusiya ordusunun yardımı ilə Qarabağı işğaldan başlayır. 1992-ci il fevralın 26-da Ermənistan hərbçiləri Rusiyanın 366 motoatıcı alayı ilə birlikdə Xocalı soyqırımını törədiblər.

Həmin vaxt ölkə prezidenti Ter-Petrosyan olsa da, Koçaryan və Sarqsyanın da bu hakimiyyətə təsir gücü az deyildi.

Qonşu dövlətin, yəni Azərbaycanın torpaqlarını işğal etməklə öyünən Ermənistan hakimiyyəti Qarabağda yalnız əliyalın dinc sakinləri qətlə yetirib.

Bunu Serj Sarqsyan da etiraf edib. Tomas de Valın müəllifi olduğu "Qara Bağ: Ermənistan və Azərbaycan sülh və savaş yollarında" adlı kitabında S.Sarqsyanın dediklərinə istinadla yazılıb: "Xocalıdan əvvəl azərbaycanlılar düşünürdülər ki, ermənilər mülki insanlara qarşı əl qaldıra bilməzlər. Amma biz bu stereotipi sındıra bildik". Tomas de Val bu müsahibənin səs yazısına da malik olduğunu bildirib.

Sarqsyan və Koçaryan dinc sakinlərin qətliamının müəllifləri olaraq sonradan prezident kürsüsü ilə mükafatlandırıldılar.

Koçaryan erməniləri "ali irq" sayaraq müxtəlif tədbirlərdə azərbaycanlılarla müqayisədə mənsub olduğu etnik qrupun "genetik üstünlüklərindən" bəhs edib.

Ancaq faşist düşüncəli Koçaryan və Sarqsyanın heç bir qohumu son döyüşdə görünmədi. Qarabağa anasını yoxlamağa gəlməklə öyünən Sarqsyanın döyüşlər zamanı səsi də çıxmadı. Ümumiyyətlə, sarqsyanlar nəslindən kiminsə döyüşlərdə öldüyü bildirilmədi.

Elə Koçaryan ailəsi də səssizliyə üstünlük vermişdi. Döyüşlər zamanı Qarabağa Ermənistanın keçmiş müdafiə naziri, Xocalı qatillərindən biri Seyran Ohanyanın gəldiyi bildirilirdi. Atəşkəs elan olunan kimi onun da Ermənistandan müalicə adı ilə qaçdığı haqqında məlumat yayıldı.

Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanın keçmiş rəhbərlərinin İkinci Qarabağ müharibəsi dövründə qaçıb gizləndiklərini qeyd edərək deyib: "...biz Koçaryan, Sarkisyan ordusunu məhv etmişik. Biz Koçaryana, Sarkisyana qarşı qüdrətimizi göstərmişik. Biz onları məğlub etmişik. Paşinyan kimdir, mən indi onun haqqında danışmaq istəmirəm, nə lazımsa demişəm. Koçaryan, Sarkisyan, siz diz çökdünüz bizim qabağımızda, siz buranı, işğal edilmiş bütün torpaqları bax, bu günə saldınız. Siz bu məscidi dağıtdınız. İkinci Qarabağ müharibəsi dövründə qaçıb gizləndilər. Döyüş bölgəsinə burunlarını da belə soxa bilmədilər. Bəs, haradadır sizin qəhrəmanlığınız? Dedim ki, çıxarın dəmir-dümürləri, onun qiyməti yoxdur. Qəhrəman ordenləri taxmısınız döşünüzə. Yalançı qəhrəmandırlar bunlar. Bax, mən burada durmuşam, dağıtdığınız məscidin önündə, dağıtdığınız Ağdam şəhərində, öz Ordumla buraya gəlmişəm. Qalib kimi gəlmişəm. Siz isə öz miskin həyatınızın sonuna qədər məğlub edilmiş, qorxaq damğası ilə yaşayacaqsınız. Nə gizlənirsiniz orada siçan kimi?! Koçaryan, Sarkisyan, mən sizə deyirəm. Paşinyan heç kimdir. İndi onun dərdi, azarı hakimiyyətdə qalmaqdır. Buna görə də bütün müxalifəti tutdurur. Qərb də susur buna, susur, ağzına su alıb. Görmür ki, nələr baş verir orada?! Hərbi cinayətkarlar, Xocalı qatilləri, sizi məhv etmişik. Azərbaycan əsgəri, Azərbaycan zabiti sizi məhv edib. Əcəb də eləyib!".

Azərbaycan Ordusu Sarqsyanın qoşunlarının birinci dəfə dərsini 2016-cı ilin aprel döyüşlərində vermişdi. Azərbaycan əsgəri 44 günlük döyüşlərdə isə həmin ordunu məhv etdi.

Beləliklə, Azərbaycan Ordusu işğalçını Qarabağdan qovmaqla yanaşı, Koçaryan və Sarqsyanın dövlət quruculuğu ilə məşğul olmadığını da sübut edib, onların iç üzünü erməni ictimaiyyətinə və sponsorlarına göstərdi. Bir də məlum oldu ki, Ermənistan ordusu dinc sakinlərə quldurcasına hücum edən silahlı dəstələrdən, "əsgər payını" oğurlayan generallardan ibarətdir.

Azərbaycan Ordusu öz torpaqlarını işğalçı Ermənistandan, onu müdafiə edən sponsorlar və havadarlarından azad etdi. Azərbaycan əsgəri Xocalı və başqa kəndlərdə ermənilərin törətdikləri qətllərin cavabını verməklə qisası qiyamətə saxlamadı.

***Sədrəddin İsmayılov***

## Putinin ənənəvi mətbuat konfransı dekabrın 17-də keçiriləcək



Rusiya Prezidenti Vladimir Putinin illik mətbuat konfransı dekabrın 17-də keçiriləcək. SİA-nın məlumatına görə, bu barədə Kremlin mətbuat xidməti bildirib. Qeyd olunur ki, mövcud epidemioloji vəziyyətlə əlaqədar tədbir videokonfrans formatında keçiriləcək. Prezidentin Novo-Oqaryovodakı iqamətgahından müraciət edəcəyi gözlənilir. Konfransda iştirak etmək üçün jurnalistlərin akkreditasiyası noyabrın 29-dan başlayacaq.

## Volqoqradda yerli sakini öldürən erməni qadın saxlanılıb



Volqoqradda valideynlərin "Viber" sosial şəbəkəsində dava salaraq yerli sakinin qətlinə səbəb olan erməni əsilli Anuş Melkonyan saxlanılıb. AZƏRTAC xəbər verir ki, qadının əri Arman Melkonyan da həbs edilib.

Xatırladaq ki, oktyabrda Volqoqrad məktəblərindən birində valideynlərin "Viber" sosial şəbəkəsində Anuş Melkonyan digər valideyn Roman Qrebenyuk ilə mübahisə edəndən sonra əri Aram və qardaşı Arsenə şikayət edib. Onlar qisas almaq məqsədilə Roman Qrebenyuku təqib ediblər. Bank şöbəsində Qrebenyuku yaxalayan Arsen ona ölümcül zərbələr endirib. Həyat yoldaşının vəfatından sonra 12 yaşlı qızını tək böyüdən Roman Qrebenyuk aldığı xəsarətlərdən vəfat edib.

İstintaqın gedişində Arsen və Aram artıq həbs ediliblər. Noyabrın 27-də "Viber"də R.Qrebenyukun ünvanına "Elə bilirsən ölümsüzsən?" sözlərini yazdığına görə Anuş Melkomyan cinayətə təhrikçilikdə ittiham olunaraq saxlanılıb.

# Bahar Muradova: "Fransa Parlamenti tarix və zaman qarşısında daha bir biabırçı akta imza atıb"



"28 illik fəaliyyəti dövründə Qarabağ məsələsinin sülh yolu ilə həllini tormozlayan ATƏT-in Minsk qrupu həmsədrlərindən biri, Ermənistanı özünə "bacı" elan etməsindən sonra davamlı olaraq özünü "itirilmiş qeyrət" sahibi kimi hiss edən Fransa Parlamenti tarix və zaman qarşısında daha bir biabırçı akta imza atmışdır. Azərbaycanın Qarabağ regionunda özünü "respublika "elan etmiş qondarma qurumu tanımaq barədə Fransa Senatının tövsiyyə xarakteri daşıyan "qətnamə"sinin özü-özlüyündə hüquqi qüvvəsi olmasa da, Fransanın beynəlxalq miqyasda üzərinə götürdüyü öhdəliklərlə və daşıdığı mandatın tələbləri ilə bir araya sığmayan qeyri-ciddi imicə malik olduğunu sübut etmək üçün yetərli təsir gücünə malikdir". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü Bahar Muradova bildirib.

Bahar Muradova qeyd edib ki, bu "sənəd" Senatın əsas tərkibinin bütün diplomatik etiket və normalara qarşı saymazyana münasibətini, o cümlədən beynəlxalq hüququn norma və prinsiplərini ciddi şəkildə pozmaqdan çəkinmədiyini sübut edir. Senatın mövcud beynəlxalq proseslərə öz tarixinin qaranlıq səhifələrindən qaynaqlanan baxışlarla münasibət sərgiləyən başabəla coxluğu öz ölkəsinin hökumətini də münaqişələrin həllinin deyil, dondurulmasının, indiki halda isə əksinə daha da qızışdırılmasının tərəfdarı olmağa sürükləməklə Ermənistanın timsalında təcavüzü, vandalizmi və barbarlığı dəstəkləməyə sövq etməyə çalışır.

"Bununla da, 30 ildən sonra Azərbaycanın öz imkanlarına istinad edərək əldə etdiyi, elə Ermənistanın özünün də imzası və razılığı ilə əldə edilmiş sülhə və təhlükəsizliyə şərait yaradan məntiqi sonluqla barışmaq istəmədiyini ortaya qoyur. Cənubi Qafqazda dayanıqlı və davamlı sülhün əldə edilməsinə töhfə vermək deyil, faşizm ideyalarını dəstəkləməyə təşviq etməyə calışır. Ermənistanın bu illər ərzində törətdiyi insanlıq əleyhinə cinayətlərə haqq qazandırmaq üçün öz üzərlərinə onun vəkili rolunda cıxış etmək kimi fərdi öhdəlik götürmüş insanların Fransa Senatının divarları arasında kollektiv məsuliyyətə əsaslanan bir avantüraya hazır olduğunu ortaya qoyur.

Absurd beynəlxalq hüquqpozma aktı xarakteri daşıyan bu kağız parcası özünü demokratik dünyanın bir hissəsi kimi təqdim edən Fransanın siyasi elitasında özünə yer eləmiş və "erməni məsələsinə bulaşmış "suyasətbazların" sayəsində ikitərəfli və coxtərəfli əsasda etibarlı aktor və beynəlxalq hüququn vicdanlı şubyekti olmadığını bir daha sübut edir. İnanmaq istərdim ki, Fransa rəsmiləri "erməni sevgisi ilə dolu ürəklərinə daş basıb" soyuqqanlı və doğru qərarlar qəbul edə biləcəklər",-deyə Bahar Muradova vurğulayıb.

# Maksim Şevçenko erməni Qabrelyanovu nədə ittiham etdi?

*"Dağlıq Qarabağ Azərbaycan xalqı tərəfindən azad edilib"*




"Ermənistan ümumiyyətlə erməni xalqının marağında olmayan müharibəni uduzub. Müharibəsiz daha böyük nəticələr əldə etmək olardı, o cümlədən, sülh yolu ilə Dağlıq Qarabağda indi aldıqları nəticələrdən daha çoxunu əldə etmək olardı". SİA xəbər verir ki, bu barədə Rusiyanın tanınmış telejurnalisti, ictimai xadimi Maksim Şevşenko "Exo Moskvı"ya danışıb. Onun sözlərinə görə, Dağlıq Qarabağ problemi həll olunub.

"Erməni silahlıları tərəfindən işğala məruz qalmış Dağlıq Qarabağ Azərbaycan xalqı tərəfindən azad edilib. Ona görə problem özü-özlüyündə həll olunub", deyə qeyd edən rusiyalı xadim həmçinin bildirib ki, ermənilərin saxta iddiaları onlara heç vaxt səmərə gətirə bilməz.

"Qabrelyanovun sosial şəbəkələrdə şovinizmə istiqamətlənmiş təbliğatçılarının "Böyük Tiqran" sərhədləri və müqəddəs imperiya ətrafındakı qlobal erməniçilik iddiaları problemdir və bu problem həll edilməyib"

Şevçenko sadə erməni xalqından fərqli olaraq şovinizmə, ultra-millətçiliyə söykənmiş fəaliyyətləri ilə araqızışdırıcılıq edən, saxta tarixləri ilə hələ də iddialar irəli sürən ermənilərin də olduqlarını bildirib. O, konkret olaraq erməni milyarderi Qabrelyanovu göstərib və Qarabağ probleminin həll olunmasına baxmayaraq, onun kimilərinin problemlərinin ümumiyyətlə həll olunmadıqlarını bildirib. Daha dəqiq desək, rusiyalı ictimai xadim məhz Qabrielyanovun və onun kimi şovinistlərin problemlər çıxardıqlarına işarə edib.

"Ancaq Qabrelyanovun tvitter-kanallarında, yaxud telegram-kanallarında şovinizmə istiqamətlənmiş təbliğatçılarının "Böyük Tiqran" sərhədləri və müqəddəs imperiya ətrafındakı qlobal erməniçilik iddiaları problemdir və düşünürəm ki, bu problem ümumiyyətlə həll edilməyib", deyən Şevçenko əlavə edib ki, sadə erməni xalqı bu kimi şovinistlərdən fərqlənirlər. "Mən düşünürəm ki, bu erməni xalqının maraqlarında deyil. Erməni xalqının maraqlarında Azərbaycanla, Türkiyə ilə, Rusiya ilə, Gürcüstanla, İranla və başqa dövlətlərlə mehriban qonşuluq, sülh, qarşılıqlı münasibətlər amilləri dayanır", deyə o qeyd edib.

***Rövşən RƏSULOV***

# Mikael Minasyan: "Ermənilər Nikolizm xəstəliyinə yoluxub"



"Ermənistanda yaşayan insanlar, ermənilər Nikol Paşinyanı hakimiyyətə gətirdilər və bunun ardınca da könüllü şəkildə Nikolizmə yoluxdular. İndi Nikol ortadan götürülməli və erməni cəmiyyəti özünü sağaltmalıdır." SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri Ermənistan Respublikasının Müqəddəs Taxtdakı keçmiş səfiri, tarix elmləri namizədi Mikael Minasyan cümə axşamı öz Facebook səhifəsində yazıb.

"Yazıçı Qabriel Qarsia Markesin "Elan olunmuş ölüm xronikası" adlı bir povesti var. İndi Ermənistandakı vəziyyət hamının nə olacağını bildiyi bu hekayəyə bənzəyir. İki il yarım müddət bundan əvvəl də Nikol ilə döyüşürdüm, çünki nə olacağını bilirdim. Bu mübarizəm heç vaxt hakimiyyət uğrunda olmayıb. Hakimiyyətin yüksəlmək və həzz almaq üçün bir taxt deyil, həyata keçirilməli bir vəzifə, borc olduğuna dair yeni fikrə sadiq qalmağa davam edirəm. İki il yarım müddətdir ki, Nikol ölkəni davamlı olaraq böyük bir diplomatik, hərbi, iqtisadi və sağlamlıq fəlakətinə aparır. Buna qarşı mübarizə aparan bir neçə nəfərə xain damğası vuruldu və pis adam adlandırıldı. Lakin, cahilliyin liderləri dərhal aradan götürülməsə, tezliklə erməniləri yeni fəlakətlər zənciri, vətənin məhv edilməsi ilə bağlı yeni bir reallıq gözləyir.

İndi Ermənistan özünü dərin və hərtərəfli bir çöküşdə tapacaq. Ölkə böyük fəlakət zonasına çevriləcək. Bunun məsuliyyəti Nikol və onunla eyni sırada olan insanların üzərindədir. Çünki, Nikol Paşinyan bunun qarşısını ala bilərdisə də almadı. Heç almaq istəmədi də. İstəmədilər, çünki Nikolun tələsinə düşdülər və manipulyasiyanın qurbanı olduqları üçün qaraya da ağ olacağını bəyan etdilər. "Əgər Nikol deyilsə, onda kimdir?" deyə Mixail Minasyan bildirilib.

***İnam Hacıyev***

# İndoneziya mətbuatı Azərbaycanın Fransa Senatının Dağlıq Qarabağla bağlı qətnaməsinə münasibəti ilə bağlı məlumatlara geniş yer ayırıb

Noyabrın 27-də İndoneziya mətbuatı Azərbaycanın rəsmi qurumlarının Fransa senatının Dağlıq Qarabağla bağlı qətnaməsinə münasibətini əks etdirən məlumatlara geniş yer ayırıb. AZƏRTAC xəbər verir ki, İndoneziyanın nüfuzlu "Republika" qəzeti, "dunia.rmol.id", "international.sindonews.com" və "kompas.com" saytları Azərbaycan rəsmi qurumlarına istinadla Fransa Senatının qəbul etdiyi "Dağlıq Qarabağ Respublikasının tanınması zərurəti" adlı qətnaməsinin qərəzli və təxribat xarakterli olması barədə xəbərlər yayıblar.


REPUBLIKA.ID REPUBLIKA TV GERAI IHRAM
REPUBLIKA.co.id
Friday, 12 Rabiul Akhir 1442 / 27 November 2020
HOME NEWS NUSANTARA KHAZANAH ISLAM DIGEST INTERNASIONAL EKONOMI REPUBLIKBOLA LEISURE PIKADA 2020 KOLOM REPUBLIKA TV KONSULTASI LAINNYA
Home > News > Internasional
Azerbaijan Sebut Resolusi Prancis Soal Karabakh Provokatif
Kamis 26 Nov 2020 19:51 WIB
Red: Christiyaningsih
Senat Prancis mengadopsi resolusi yang menyerukan pengakuan atas Republik Nagorno-Karabakh - Anadolu Agency
Senat Prancis mengadopsi resolusi yang menyerukan pengakuan atas "Republik Nagorno-Karabakh" - Anadolu Agency
REPUBLIKA.CO.ID, BAKU - Azerbaijan mengatakan bahwa resolusi di Senat Prancis yang mendesak pengakuan Nagorno-Karabakh sebagai negara merdeka adalah "bias" dan "provokatif".
"Pertama-tama, kami ingin menekankan bahwa proposal resolusi tentang 'Republik Nagorno-Karabakh' yang diadopsi oleh Senat Prancis diajukan oleh
Jadwal Shalat
Friday, 27 Nov 2020 19:14:46
JAKARTA
SUBUH 04:05
TERPOPULER

"Republika" qəzetinin Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) bəyanatı əsasında yaydığı məlumatda deyilir: "Fransa senatında qəbul edilmiş "Dağlıq Qarabağ Respublikasının tanınması zərurəti" adlı qətnamə təklifi bir qrup qatı ermənipərəst senator tərəfindən irəli sürülüb".

Azərbaycan XİN-in bəyanatına əsasən bildirilir ki, Fransada yaşayan ermənilər, ilk növbədə, Qarabağ münaqişəsindən seçki məqsədləri üçün istifadə etməyə çalışırlar. Senat tərəfindən tamamilə qərəzli qətnamənin qəbul edilməsi yalnız təxribat kimi qiymətləndirilə bilər.

Bəyanatda, həmçinin bildirilir ki, Senatın qəbul etdiyi qətnamənin hüquqi qüvvəsi yoxdur. Lakin sənədin siyasi məna kəsb etdiyini nəzərə alaraq, vasitəçi mandatı daşıyan bir ölkənin belə bir qətnamə ilə çıxış etməsi ölkənin bitərəfliyini ciddi şübhə altına alır.

Xəbərdə Ermənistan-Azərbaycan münaqişəsinin tarixi barədə də məlumat verilir. Qeyd edilir ki, ötən əsrin 90-cı illərində keçmiş Sovet İttifaqının dağılmasından istifadə edən Ermənistan xarici havadarlarının dəstəyi ilə Azərbaycanın Dağlıq Qarabağ regionunu və ətraf rayonları işğal edib. Tərəflər arasında son qarşıdurma Ermənistanın mülki əhaliyə qarşı təxribatından sonra sentyabrın 27-də başlayıb. Altı həftə davam edən müharibə Rusiyanın vasitəçiliyi ilə dayandırılıb və Azərbaycan işğal altında olan torpaqlarını azad edib.

# İşğaldan azad edilmiş İstisu



Kəlbəcər rayonu ərazisində yerləşən "İstisu" sanatoriyasının görüntüləri paylaşılıb. SİA xəbər verir ki, bu barədə video sosial şəbəkələrdə yayılıb.

Qeyd edək ki, Kəlbəcər İstisu mineral ehtiyatı və "İstisu" sanatoriyası ilə dünyada tanınıb. İstisu sanatoriyası Kəlbəcərin qərb hissəsində - silsilə dağ yamaclarındadır. İstisu mineral bulaqları 1138-ci ildə güclü zəlzələ zamanı yerin qabarması, çatlaması nəticəsində əmələ gəlib. Öz kimyəvi tərkibi və fiziki xüsusiyyətlərinə görə, bu sular dünyada məşhur olan Karlovı-Varı bulaqlarının (Çexiya) eynidir və bir çox digər xüsusiyyətlərinə görə dünyada yeganədir. Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistan Respublikasının Baş nazirinin noyabrın 10-da imzaladıqları üçtərəfli Bəyanata əsasən, Kəlbəcər rayonu noyabrın 25-də Azərbaycana təhvil verilib.

# Fransız ikiüzlülüyü...

## *Fransa haqq-ədalət və ümumilikdə hansısa azadlıqlar mövzusundan danışacaq ən son dövlət olmalıdır*

***Azərbaycanın öz tarixi torpaqlarını düşmən tapdağından azad edərək ərazi bütövlüyünü bərpa etməsi hələ də bəzi qüvvələri, Fransa kimi ölkənin rəhbərliyini ciddi narahat edir. Belə olmasaydı, nə Paris meriyası, nə də Fransa Senatı həll olunmuş münaqişəni separatçılara dəstək məqsədilə yenidən alovlandırmağa hesablanmış addımlar atmazdı. Bu addımları ilə Avropada özlərini demokratiyanın carçısı və müdafiəçisi kimi təqdim edən Fransanın Azərbaycan Respublikasının ərazisində ikinci erməni dövlətinin yaradılmasına yönəlik cəhdləri qəti şəkildə pislənir, işğalçıya dəstək verən Parisin son davranışları hiddət doğurur.***

Özünü və niyyətlərini Minsk Qrupunun pərdəsi altında gizlədən fransızlar Azərbaycan ordusunun uğurlu əməliyyatlarından sonra danışmağa başlayıblar. Xüsusilə də, rəsmi Paris bu gün də həmin "tarixi yol"u tutub. Bu ölkə indi də noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatın pozulması, ermənilərin yenidən qarşıdurmalara, müharibəyə getmələri üçün əlindən gələni edir. Ancaq bir həqiqəti anlamır ki, Fransanın son iki ayda etdiyi bütün cəhdlər axırda ona gətirib çıxaracaq ki, Qarabağda qalan beş-on min tör-töküntü millətçi erməni də bezib bu torpaqlardan rədd olub gedəcək. Xüssilə də, Fransanın bu gün Makronun rəhbərliyi ilə sərgilədiyi ermənipərəst mövqeyi, Azərbaycanın haqq, ədalət işinə qarşı apardığı siyasət birbaşa sülhə təhlükədir. Və belə olan halda, Fransa Dağlıq Qarabağ münaqişəsilə bağlı bitərəf mövqe tutduğunu nə qədər iddia etsə də, bu ölkənin əslində erməniperəst siyasət yeritməsi istəristəməz özünü büruzə verir.

Azərbaycan Prezidenti İlham Əliyev bu cür addımlar səbəbindən aradakı diplomatik münasibətlərin belə dayandırılmasına gətirib çıxara biləcəyini dəfələrlə qeyd edib.

Bəs Fransa hökuməti bunun altını çəkməyə hazırdırmı? Ermənilərə bu cür "təəssübkeşlik"ləri üzündən Fransanın nüfuzu, ATƏT-in Minsk qrupundakı həmsədrliyi sual altına düşəcəyini prezident Emanuel Makron dərk edirmi? Dərk etsəydi Fransa Senatında qondarma "Dağlıq Qarabağ respublikasının" tanınmasına dair qətnamə layihəsinin qəbul etməzdi. Ancaq bu qətnamənin heç bir əhəmiyyəti yoxdur, adi bir kağız parçasıdır.

### Hikmət Hacıyev: "Fransa Senatının bu qətnaməsi Azərbaycan üçün adi kağız parçasından başqa bir şey deyil"

Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Fransa Senatında qondarma "Dağlıq Qarabağ respublikasının" tanınmasına dair qətnamə layihəsinin qəbuluna münasibət bildirərək deyib ki, Senatın bu təxribatçı addımı Fransa siyasi dairələrinin ənənəvi Ermənistan təəssübkeşliyinin təzahürüdür. Noyabrın 18-də Fransa Senatının Rəyasətində erməni diasporunun və lobbisinin təsiri altında olan bir qrup senator tərəfindən qondarma "Dağlıq Qarabağ Respublikasının tanınmasının zəruriliyinə dair" 145 nömrəli qətnamə layihəsi təqdim olunub, noyabrın 25-də müzakirə edilərək qəbul olunub. İlk olaraq vurğulamaq istərdik ki, bu qətnamə Azərbaycan üçün adi kağız parçasından başqa bir şey deyil. Dar siyasi ambisiyalar naminə qəbul olunmuş bu kağız parçası beynəlxalq hüquq normaları, BMT Nizamnaməsi və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin kobudcasına pozulması ilə yanaşı, Fransanın istər Minsk qrupunun həmsədr ölkəsi, istərsə də BMT TŞ-nin daimi üzvü kimi məramı və obyektiv fəaliyyəti ilə bağlı ciddi suallar doğurur. Senatın bu təxribatçı addımı Fransa siyasi dairələrinin ənənəvi Ermənistan təəssübkeşliyinin təzahürüdür. Vasitəçi ölkənin bitərəf və ədalətli olmalı olduğunu unudan Fransanın açıq erməniperəst mövqeyi münaqişənin sülh yolu və beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinə mane olan əsas amillərdən biri olmuşdur. Məhz onun belə dəstəyi təcavüzkar Ermənistanı status-kvonu davam etdirməyə və işğal faktını gücləndirməyə həvəsləndirmişdir.

Böyük təəssüf doğuran məqam odur ki, Fransa Senatı Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin işğal olunması, mülki əhalinin qətlə yetirilməsi, işğalçı dövlətin torpaqlarımızda etnik təmizləmə, ekoloji terror, qeyri-qanuni məskunlaşma və qanunsuz iqtisadi fəaliyyətlər aparmasına qarşı 30 il susqun mövqe nümayiş etdirmişdir. Qətnamənin mətnində Azərbaycan və qardaş Türkiyənin ünvanına yer alan saxta ittiham və böhtanları qəti şəkildə rədd edirik, münaqişənin tarixi, siyasi və hüquqi aspektlərini təhrif etmək cəhdlərini kəskin qınayırıq".

H.Hacıyev onu da vurğulayıb ki, Türkiyə və Azərbaycanın guya xaricdən muzdlu terrorçuları döyüşlərə cəlb etməsi ilə bağlı indiyə qədər heç bir sübutla təsdiq olunmamış iddialar əsassızdır: "Ermənistan silahlı qüvvələri sıralarında Fransa vətəndaşları olan muzdluların Azərbaycan ərazilərində döyüşlərdə iştirak etməsi barədə faktlar və dəlillər aidiyyəti qurumlarımız tərəfindən Fransanın diqqətinə çatdırılmışdır. Qətnaməni Fransada artmaqda olan islamofobiyanın bariz nümunəsi hesab edirik. Fransada ifrat dünyəvilik və mətbuat azadlığı pərdəsi altında İslam dininə və müsəlmanlara qarşı həyata keçirilən ayrı-seçkilik və təqiblər bizə vaxtı ilə bu ölkədə hökm sürmüş və bu gün də davam edən antisemitizmi xatırladır. Fransa Senatı məqsədyönlü şəkildə döyüşlərin davam etdiyi 44 gün ərzində münaqişə bölgəsinə yaxın və oradan uzaqda olan dinc sakinlər, mülki obyektlər, enerji və nəqliyyat infrastrukturuna qarşı Ermənistan hərbi təxribatlarını qınamaqdan çəkinir, daha çox sayda mülki əhalisi qətlə yetirilmiş, kəndləri, qəsəbələri və şəhərləri raket atəşinə tutulmuş Azərbaycanı vicdansızcasına ittiham edir".

H.Hacıyev, həmçinin bildirib ki, Erməniperəst Fransa siyasi dairələri anlamalıdır ki, Azərbaycan öz torpaqlarında xarici işğalçı hərbi qüvvələrə qarşı müharibə aparmışdır və həmin ərazilər Azərbaycanın beynəlxalq hüquqda tanınan suveren əraziləridir: "Heç bir qüvvə Azərbaycanı buna görə ittiham edə və Azərbaycanın hərbi birləşmələrinin bu ərazilərdən çıxarılmasını tələb edə bilməz. 2020-ci il noyabrın



10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin imzaladığı birgə bəyanatla Ermənistan və Azərbaycan arasında hərbi eskalasiyaya son qoyulmuş və regionda sülhün bərqərar olunması istiqamətində praktiki işlərə başlanmışdır. Təəssüflə qeyd edilməlidir ki, ATƏT-in Minsk qrupunun həmsədr ölkələrindən biri olan Fransa nə qədər paradoksal olsa da, bu razılaşmanı pozmağa və münaqişəni yenidən alovlandırmağa çalışır. Fransanın son vaxtlar bir sıra beynəlxalq təşkilatlarda ölkəmizə qarşı riyakar siyasət aparması Azərbaycan tərəfində ciddi narahatlıq və suallar doğurur".

"Fransa Senatı əgər ədalət, beynəlxalq hüquq barədə bu qədər "narahatdır"sa, onda onun BMT Baş Assambleyasının qətnamələrinə və Qoşulmama Hərəkatının qərarlarına uyğun olaraq müstəmləkəçiliyin ən son nümunələrindən biri olan Qəmər adalarının Mayot adası məsələsini nəzərdən keçirməsi daha məntiqli olardı",-deyən H.Hacıyev bildirib ki, bu qətnamənin qəbulunu Fransa siyasəti və parlamentarizmi üçün olduqca utancverici bir addım kimi dəyərləndiririk: "Fransa Hökuməti bu kimi təxribatçı addımların yolverilməz olmasına dair rəsmi mövqeyini bildirməli və qətnaməni qınayan bəyanat verməklə Azərbaycanın ərazi bütövlüyünə dəstəyini ifadə etməlidir".

Göründüyüü kimi, Fransa bu cür addımlarla açıq-aydın beynəlxalq hüququn normalarına qarşı çıxdığını sübut edir.

### Kağız parçası...

Ötən gün Fransa Senatının qəbul etdiyi qərəzli qətnamə Azərbaycan üçün mənasız kağız parçasından başqa bir şey deyil. Çünki döyüş meydanında məğlub olan düşmənin himayədarlarının bu cür ucuz vasitələrə al atması təəccüb doğurmadığı kimi, gözlənilən idi. Və BMT çərçivəsində Azərbaycanın ərazi bütövlüyünü tanıyan Fransa bu cür addımlarla açıq-aydın beynəlxalq hüququn normalarına qarşı çıxış etməklə tam erməniperəst mövqe nümayiş etdirir. Bir daha Azərbaycana qarşı işğalçılıq siyasətini sübut edir. Həmçinin, bu addımla BMT Təhlükəsizlik Şurasının Azərbaycan torpaqlarının qeydşərtsiz boşaldılması ilə bağlı qəbul etdiyi 4 qətnamənin heçə sayılmasıdır. Çünki həmin qətnamələrə səsverən Fransa olub və bu gün isə öz-özünü inkar edir.

Senatın qərarına münasibət bildirən Fransa Xarici İşlər Nazirliyi açıqlamasında bildirib ki, Parisin qondarma qurumu birtərəfli tanıması Fransanın özü də daxil olmaqla heç kəsə fayda verməz. Fransa hökuməti də başa düşür ki, bu qətnamənin bir kağız parçasından heç bir fərqi yoxdur. Çünki Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü bərpa edib.

Qeyd edək ki, Qərb dəyərlərindən, beynəlxalq hüquqdan dəm vuran fransızlar bu günə qədər Mins Qrupunun həmsədri kimi heç nə ilə yadda qalmayıb, 30 ilə yaxın bir müddət ərzində haqqları, hüquqları pozulan Azərbaycanlıların müdafiəsinə nəinki qalxmış, Ermənistana işğalçı dövlət kimi hər hansı bir sanksiyanın tətbiq edilməsini müzakirəyə çıxarmamışdır. Makronun "Ermənistana və ermənilərə deyirəm, Fransa da öz rolunu oynayacaq". bəyanatının bir anlamı var: Fransa Azərbaycan torpaqlarının zəbt olunmasının davamında Ermənistan və ermənilərə yardımçı olacaq. Və bu gün bir daha bunu göstərdi.

Hər kəs, eləcə də faransızlar bilməlidir ki, Azərbaycan işğalçıya qarşı Vətən Müharibəsi aparır. Bu savaş Azərbaycanın işğal olunmuş torpaqlarını azad etmək uğrunda Vətən Müharibəsidir. Bu bizim haqq işimizdir. Dağlıq Qarabağ mübahisəli torpaq deyil, Azərbaycanın əbədi, əzəli və beynəlxalq hüquq tərəfindən tanınmış tarixi torpağıdır. Bunu anlamayan vasitəçilərin missiyasına ehtiyac yoxdur.

Azərbaycanın Ermənistanın işğal etdiyi torpaqlarını azad etməsi üçün bütün hallarda beynəlxalq hüquqa əsaslanır. Azərbaycanın haqlı mübarizəsinə qərəzli mövqe nümayiş etdirən Qərb dövlətlərinin, institutlarının, həmçinin media qurumlarının fəaliyyətini, onların peşəkarlığın və obyektivliyini ciddi şəkildə şübhə altına almağa hər cür əsas var.

Son iki ildə Azərbaycan Prezidenti İlham Əliyev bu ölkələrin diqqətinə çatdırırdı ki, Paşinyan hökuməti danışıqlardan imtina edir. Ermənistanın müharibəyə hazırlaşdığını, Prezident İlham Əliyev dəfələrlə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmışdı. Lakin fransızlar indiki kimi meydana çıxıb bəyanatlar vermir, erməniləri sülhə məcbur etmirdi. Unudulmamalıdır ki, Fransa özü soyqırımı törətmiş bir ölkədir. Fransanın yaxın tarixinə diqqət yetirdikdə onun soyqırımlarla dolu səhifələrini görməmək mümkün deyil.

### Fransa haqq-ədalət və ümumilikdə hansısa azadlıqlar mövzusundan danışacaq ən son dövlət olmalıdır

Milli Məclisin deputatı, Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Elman Məmmədovun sözlərinə görə, yaxın keçmişində müstəmləkəçi olan Fransanın indi hansısa "azadlıqlar"dan danışması absurddur. Deputat Fransanın öz tarixinə nəzər salmasını məsləhət bilib: "Əslində Fransa haqq-ədalət və ümumilikdə hansısa azadlıqlar mövzusundan danışacaq ən son dövlət olmalıdır. Çünki bu ölkənin tarixinə nəzər saldıqda Fransa nəinki Avropa, ümumilikdə dünya dövlətləri içərisində özünün işğalçılıq və müstəmləkəçilik siyasəti ilə seçilib. Yəni bu istənilən ölkədə kitablardan oxunması mümkün olan tarixdir. Heç kim bunu Fransaya şərböhtan kimi demir, yazmır. Fransanın tarix boyu Şimali Afrika, Asiya, hətta Şimali Amerikada törətdiyi soyqırımlar, qırğınlar və apardığı işğalçılıq siyasəti səngiməyib. Bu ölkə müstəmləkəçiliyi ilə seçilib və xüsusən də Afrikada fransız hərbçilərinin dinc sakinlərə hansı vəhşiliklər etməsi ilə bağlı yüzlərlə fakt mövcuddur. Ötən əsrin əvvəllərinə nəzər saldıqda görərik ki, indi özünə Avropanın demokratik dövləti deyən Fransa Türkiyəni belə parçalamağa çalışırdı, burada ermənilərə dövlət yaratmaq planları var idi. Hər cür murdar əməllərə əl atdılar ki, bu plan reallaşsın. Hətta Fransa ordusunun tərkibində sayı minlərlə olan erməni legionu yaradılmışdı. Dinc sakinlərin, türklərin qırğınına da məhz silahlandırılmış erməni dəstələri səbəb olmuşdu. Əgər ermənilərin özlərinin dediyi kimi həmin dövrdə etdikləri qələtlərə görə itkilər veriblərsə, bu gün Ermənistan Türkiyədən yox, Fransadan təzminat istəməlidir. Çünki onları qırğınlara təhrik edən, Türkiyəyə qarşı qaldırıb torpaq iddiasına salan Fransa idi".

"Qondarma erməni soyqırımını tanıyıb nə qələtlər etdilər ki?! Dırnaqarası soyqırımı qəbul etməyənlərə Fransa ərazisində cərimə kəsəcəklərini dedilər. Bununla nəyəsə nail oldularmı?",- deyən millət vəkili bildirib: "Bu ölkənin belə siyasi hikkələri, separatizmi, yalançı soyqırımı dəstəkləyən hərəkətləri elə Fransanın özündə faşizmin dirçəlişini göstərir. Rəsmi Parisin son davranışları sülhə ciddi təhlükədir və zənnimcə, onun müttəfiqləri, xüsusən də ABŞ kimi ölkələr Fransanın bu siyasətini müzakirə edib Makronu yerində oturtmalıdır".

Artıq Qarabağ münaqişəsinin bitdiyini deyən deputat, Fransanın yenidən problemi gündəmə gətirib regionu qan çanağına çevirməkdə marağının nələrdən ibarət olduğunu anlamadığını söyləyib: "Cənab Prezident dünən xalqa müraciətində bu məsələlərə toxunaraq çox gözəl siyasi mesajlar səsləndirdi. Yəni bu cür davranışlar bizim üçün əlavə baş ağrıdan, boş-boş söhbətlərdən başqa bir şey deyil. Əgər ermənilər fransızların "fətva"ına gedib məlum bəyanatın bəndlərinin pozulmasına görə, orada qarşılarına qoyulan tələblərin yerinə yetirilməməsi istiqamətində nələrsə edəcəksə, onqat cavablarını qalacaqlar. Nə qədər döyüş meydanında məhv ediliblərsə, ondan da artıq itkini görəcəklər. Əgər ermənilər bundan sonra da dövlət kimi mövcud olub yaşamaq istəyirlərsə, bizim keçdiyimiz son dərslərdən sonra ağıllarını başlarına yığmalıdırlar. Fransanın və digər onun kimi fitnəkar dövlətlərin "fətva"sına getməsinlər. Düşdükləri hazırkı ağır iqtisadi-sosial və siyasi vəziyyətdən çıxmaq üçün yollar axtarsınlar".

**R.HÜSEYNOVA**

# Uşaq hüquqlarının müdafiəsi sahəsində çevik mexanizm formalaşdırılacaq

*Dövlət başçısının Sərəncamı ilə "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı" ölkəmizdə uşaqlara dövlət qayğısını daha bir təzahürüdür*



***Ölkəmizdə uşaqlara dövlət qayğısının gücləndirilməsi, uşaq problemlərinə vətəndaş cəmiyyəti qurumlarının diqqətinin artırılması və uşaqlarla bağlı demoqrafik perspektivlərin müəyyənləşdirilməsi məqsədi ilə tədbirlər həyata keçirilir. Uşaqların xoşbəxt böyüməsi cəmiyyətin mənəvi-siyasi və sosial-iqtisadi inkişafının vacib meyarı və göstəricisidir.***

Bu gün ölkəmizdə uşaq hüquqları sahəsində ən müasir qanunvericilik bazası formalaşmışdır. Bütövlükdə Azərbaycan qanunvericiliyi bütün vətəndaşlar kimi uşaqların da hüquq və azadlıqları üçün təminatları nəzərdə tutulur. Valideyn himayəsindən məhrum olmuş, əlil uşaqların, müxtəlif səbəblər nəticəsində yararsız həyat şəraitinə məruz qalan uşaqların müdafiəsini gücləndirir. Azərbaycanda uşaq hüquq və azadlıqlarının qorunması istiqamətində onlarla qanun qəbul edilib və ölkəmiz beynəlxalq konvensiyalara qoşulub.

Noyabrın 27-də Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı"nın təsdiq edilməsi görülən işlərin davamıdır. "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 2 iyun tarixli 2073 nömrəli Sərəncamının 3.1-ci bəndinə uyğun olaraq hazırlanmışdır. Fəaliyyət Planının məqsədi uşaq hüquqlarının müdafiəsi sahəsində çevik institusional mexanizm formalaşdırılmasından və aidiyyəti dövlət orqanlarının qarşılıqlı fəaliyyətinin təmin edilməsindən ibarətdir. Fəaliyyət Planında pandemiya və digər fövqəladə vəziyyətlər də nəzərə alınmaqla, uşaq hüquqlarının müdafiəsinə hərtərəfli yanaşma prinsipləri, xüsusi vəziyyətlərdə uşaqların bütün növ xidmətlərə təhlükəsiz çıxışında bərabərliyin təmin olunması məsələləri, xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən əziyyət çəkmiş uşaqlara və onların ailələrinə sosial-psixoloji dəstək tədbirlərinin gücləndirilməsi öz əksini tapıb. Eyni zamanda, xarici ölkələrdə münaqişə qurbanı olmuş və daha sonra ölkəmizə qaytarılmış Azərbaycan Respublikası vətəndaşı olan uşaqların cəmiyyətə reinteqrasiyası istiqamətində də fəaliyyətin həyata keçirilməsi nəzərdə tutulub.

Bu gün ölkədə uşaqların üzləşdikləri problemlərin aradan qaldırılması diqqət mərkəzindədir. Bu problemlərin həll edilməsi bütövlükdə uşaqlara olan qayğıdır. Çətin həyat şəraitində, baxımsız və sosial təhlükəli vəziyyətdə olan uşaqların aşkarlanması və onların sosial müdafiəsi, reabilitasiyası, cəmiyyətə inteqrasiyası sahəsində tədbirlərin həyata keçirilməsi, eyni zamanda, ölkəmizdə alternativ qayğı xidmətlərinin inkişafı, həyatın bütün sahələrində uşaqlara qarşı zorakılığın qadağan olunması ilə bağlı qanunvericilik təkliflərinin işlənilməsi Fəaliyyət Planında xüsusi yer tutur. Uşaqlarda təhlükəsiz həyat fəaliyyəti, xüsusilə internet təhlükəsizliyi mədəniyyətinin formalaşdırılması, eyni zamanda, informasiya-kommunikasiya texnologiyalarının tədrisinin təkmilləşdirilməsi və bu sahədə biliklərin artırılması, yeniyetmələrin intellektual inkişafını stimullaşdıran layihələrin həyata keçirilməsi də diqqətdən kənarda qalmayıb. Uşaqların sağlam həyat tərzinin və asudə vaxtın təşkili istiqamətində tədbirlər həyata keçiriləcək. Təbii ki, uşaq sağlam, cəmiyyətə faydalı vətəndaş kimi böyüyərsə, ölkənin parlaq gələcəyi də bir o qədər inkişaf edər.

Ölkəmizdə uşaqlara, gənc və yeniyetmələrə göstərilən dövlət qayğısının artması və bu sahənin daim diqqət mərkəzində saxlanılması bu amala xidmət edir.

Erkən yaş dövründə uşaqların fiziki və əqli inkişafının təmin edilməsi, sağlam qidalanması istiqamətində tədbirlərin görülməsi, eləcə də uşaqların sağlam böyüməsi üçün göstərilən tibbi xidmətlərin keyfiyyətinin artırılması diqqətdə dayanan məsələrdən ki, onlar üçün geniş şərait yaradılıb. Uşaqların tibbi müayinə olunmaları, ərzaq təminatı və s. diqqət mərkəzindədir. Fəaliyyət Planında valideyn himayəsindən məhrum olmuş, baxımsız, sosial təhlükəli vəziyyətdə olan uşaqların sosial xidmətlərə əlçatanlığının artırılması və sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların daha keyfiyyətli təhsillə təmin edilməsi də yer alıb. Təhsil, səhiyyə, sosial müdafiə, mədəniyyət və idman sahələrində bütün uşaqlar üçün bərabər imkanlar yaradılacaq. Dövlət qayğısına ehtiyacı olan uşaqların hüquqlarını müdafiə etmək üçün müasir tələblərə uyğun dəstək xidmətləri təmin ediləcək.

Fəaliyyət Planında göstərilən tədbirlərin icrasına tələb olunan xərclər müvafiq illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsində aidiyyəti icraçı dövlət orqanları (qurumları) üçün nəzərdə tutulmuş vəsait, büdcədənkənar vəsait, qrantlar, habelə qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdiriləcəkdir. Əlbəttə ki, ölkəmizdə uşaqların müdafiə sistemini gücləndirilməsi istiqamətində ölkəmizdə ardıcıl olaraq tədbirlərin həyata keçirilməsi onların sağlamlığına, xoşbəxt və firavan yaşamasına istiqamətlənib.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Qabil, get, qulağını kəs və tayqulaq ol!



### "Kopooğlu" olmamağın üçün!

Qərbin ermənipərəsət dairələrinin əlində işlənmiş "salfetka" kimi ora-bura atılan bir çox klaviatura "qəhrəmanları" var və onların yenidən bir-bir adlarını sadalamağa da heç bir ehtiyac yoxdur. Ancaq daha bir fakt budur ki, beləələrinin əksəriyyətinin bir ucları gedib-bağlanır AXCP-yə və onun sədri Əli Kərimliyə. Yəni bunu ayırd etmək üçün uzun siyasi tənliyə heç bir ehtiyacfilan lazım deyil. Necə deyərlər, 2x2-dir...

Niyə məhz Əli Kərimliyə? Bu sualın da cavabı bəsitdir. Elə də uzağa getməyərək, bugünlərdə Fransa senatının artıq mövcud olmayan qondarma "DQR"in tanınması ilə bağlı hökumətə verdiyi təklif qətnaməsinə siyasi partiyaların etiraz bəyanatında AXCP-nin adını olmadığını göstərə bilərik. Düzdür, orada Müsavat partiyasının da adı yoxdur, amma bu barədə başqa vaxt qeydlərimi edəcəyəm.

İndi özü bilər, ya özü-öz qulağını kəsəcək, yoxsa Əli Kərimlinin xaricdəki erməni lobbisindən pul kəsən adamları Qabilin qulağını kəsəcəklər ki, "liderlərinin" adı bədnama çıxmasın - əsas məsələ qulağını kəsməsidir!

İndi isə söhbət sözügedən birgə bəyanatda Əli Kərimlinin adının olmamasından və onun xaricdəki klaviatura "qəhrəmanlarının" hansı səbəbdən özlərinə əl qatmalarından, narahat olmalarından gedir. Məsələn, Əli Kərimlinin söyüş və təhqir maşını hesab edilən Qabil Məmmədov adlı bir gerçək gədadan. Deməli, gədalığın bütün element və özəlliklərini özündə birləşdirən ünsür gecəgündüz, saatlarla "skipe" qarşısında oturub hakimiyyəti, dövlət başçısını, xalqı, milləti təhqir etməklə məşğul olur və həyasızcasına Qarabağı azad edə bilməyəcəyi ətrafında "vədlər" verirdi. Hətta nəinki Qarabağın, bir rayonunun belə düşməndən azad olunacağı təqdirdə, qulağını kəsəcəyinə də söz vermişdi, özü də söyüşlə! Qabil Məmmədov yayılmış videogörüntüsündə açıq-aşkar deyir ki, qulağını kəsməsə, tayqulaq gəzməsə köpək oğludur! Əlbəttə, bu fikirləri ona dedizdirənlərin bir qanadı Qərbin erməni lobbisinin dəstəkçiləri olsa da, digər tərəfinin həmin dairələrə işlədiyi dəfələrlə sübuta yetirilən AXCP sədri Əli Kərimli olub. İndi iş qalır Qabil adlı gədanın qulağının birini kəsməsinə - ucuz həyatının qalan hissəsini təkqulaq yaşaması məsələsinə, el dili ilə desək, "koopooğlu" damğasını daşımamaq üçün verdiyi vədini yerinə yetirməsinə.

İndi özü bilər, ya özü-öz qulağını kəsəcək, yoxsa Əli Kərimlinin xaricdəki erməni lobbisindən pul kəsən adamları Qabilin qulağını kəsəcəklər ki, "liderlərinin" adı bədnama çıxmasın. Yoxsa el-aləm də car çəkər ki, bəs Əli Kərimlinin adamı qulağını kəsəcəyinə söz vermişdi, amma kəsmədi-filan.

### Arzu edirdilər ki, torpaqlarımız illərlə işğalda, erməni vəhşilərinin xalqımıza qarşı törətdikləri qanlı əməlləri qisassız qalsın

Hə, onu da nəticə çıxararaq qeyd edə bilərəm ki, əslində, özlərini illər boyu xalqdan təcrid edən, xalqdan yalnız öz çirkin, xəyanətkar məqsədləri naminə istifadə etmək üçün başda Əli Kərimli olmaqla, onun xaricdəki söyüş maşınları Qarabağın düşmən işğalından azad olunmamasını arzu edirdilər. Arzu edirdilər ki, torpaqlarımız illərlə işğalda, erməni vəhşilərinin xalqımıza qarşı törətdikləri qanlı əməlləri qisassız qalsın, onlar da bu məsələnin üzərində spekulyasiyalara yol verməklə hakimiyyətə qarşı çıxışlar edib, erməni dəyirmanına su töksünlər. Amma alınmadı, arzuları qaldı bir yerlərində. Artıq Qarabağımız da azaddır, düşmən də məhv olub!

Yeri gəlmişkən, daha bir boynuyoğun gəda barəsində də xatırlatmaq etməyin tam yeri və zamanıdır. Növbəti gəda isə Vidadi İsgəndərlidir...

### Sözündən qaçanın adını xalq verir

Məhz o, ağzının suyunu sağasola səpə-səpə sosial şəbəkələrdə Azərbaycan dövləti və xalqı əleyhinə boğazını yırtanda demişdi ki, əgər Fransa Qarabağ məsələsində Azərbaycana qarşı silah çevirərsə, o da öz silahını götürüb Fransa tərəfində döyüşəcək. Yadınızdadırmı həmin ifadələr? Yəqin ki, bir çoxları bunu görüb. İndi buyursun çevirsin silahını Azərbaycan dövlətinə, Azərbaycan Ordusuna tərəf, görək necə çevirir. Bax, budur onların murdar və xəyanətkar sifətləri.

Sonda isə daha bir xatırlatmanı etmək yerinə düşərdi. Əgər Əli Kərimlinin söyüş maşını vəzifəsini icra edən Qabil Məmmədov qulağını kəsməsə, onda nəinki "kopoğlu" adını tüksüz peysərində gəzdirməli olacaq, həm də ona başqa bir ad da qoyacaqlar. Çünki sözündən qaçanın adını xalq verir. Məsələn, növbəti dəfə sosial şəbəkələrə çıxanda və həyasızlıq edəndə, adının qarşısına özünün vəd etdiyi ifadəni və xalqın qoyduğu ifadəni əlavə etməlidir. Ancaq çətin ki, Qabil qulağını kəsə. Ona görə də bəri başdan "kopooğlu" ifadəsini pərçimləməlidir adının qarşısına, bunu isə biz demirik, hər kəs şahiddir ki, özü deyib!

*Rövşən RƏSULOV*

## Azərbaycanda 3712 nəfər COVID-19-a yoluxdu, 35 nəfər vəfat edib




Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 3712 yeni yoluxma faktı qeydə alınıb, 1359 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 35 nəfər vəfat edib. İndiyədək ölkədə ümumilikdə 109 813 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 69 931 nəfər müalicə olunaraq sağalıb, 1 291 nəfər vəfat edib, aktiv xəstə sayı 38 591 nəfərdir. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 16 402, ötən müddət ərzində isə ümumilikdə 1 682 234 test aparılıb.

## Ermənistan daha 34 itkisini açıqladı

Ermənistan müharibə dövründəki daha 34 itkisini açıqlayıb. SİA Ermənistan KİV-ə istinadən xəbər verir ki, düşmən tərəf bu gün itkilərinin bir hissəsini də elan edib. 34 soyadın yer aldığı yeni siyahıda 2000 və 2001-ci il təvəllüdlü şəxslər üstünlük təşkil edir.



# “Azərbaycan və Rusiya qalib oldu, başqa qalib yoxdur”

*İqor Korotçenko: “Fransa və ABŞ-ın Rusiya ilə Azərbaycana qarşı Qarabağla bağlı razılaşmanı pozmaq cəhdləri yalnız onların geosiyasi məğlubiyyəti faktını gücləndirir”*



***Moscow-baku.ru saytı Fransa Senatının qəbul etdiyi və Azərbaycan ərazilərində terrorçu “dövlət”i tanımağa çağıran və beynəlxalq hüququ ayaqlayan qərarı haqda Rusiyanın nüfuzlu hərbi-siyasi eksperti, “Milli Müdafiə” jurnalının baş redaktoru İqor Korotçenkonun geniş fikirlərini dərc edib. Həmin məqaləni oxucularımıza təqdim edirik.***

2 gün əvvəl Fransa Senatı, ölkə hökumətini “Dağlıq Qarabağ”ı müstəqil bir dövlət kimi tanımağa çağıran bir qərar qəbul etdi. Sənəddə deyilir: “Senat Fransa hökumətini “Dağlıq Qarabağ Respublikası”nı tanımağa və bu tanınmadan daimi bir sülhün bərqərar olması üçün danışıqlar vasitəsi kimi istifadə etməyə çağırır”.

Qətnamə məsləhət xarakterlidir və heç bir hüquqi qüvvəyə malik deyil. Amma maraqlıdır- qətnaməni şərh edən Fransa Dövlət Katibi Jean-Baptiste Lemoine Qarabağın birtərəfli tanınmasının heç kimə fayda verməyəcəyini və vasitəçilik səyləri göstərməyəcəyini söylədi. Lemoine, ATƏT-in Minsk qrupunun üzvü olan Fransanın münaqişə tərəfləri tərəfindən 9 noyabrda əldə edilmiş atəşkəs razılaşmasının həyata keçirilməsinin tərəfdarı olduğunu xatırlatdı.

Azərbaycan Prezident Administrasiyasına görə, bu qətnamə dar siyasi ambisiyalar üçün qəbul edilmiş “kağız parçası” dan başqa bir şey deyil. Bu, BMT Təhlükəsizlik Şurasının daimi üzvü, həmçinin Minsk Qrupunun da həmsədri olan Fransanın beynəlxalq hüququ, BMT Nizamnaməsini və BMT TŞ-nin müvafiq qətnamələrini kobud şəkildə pozmasıdır. PA-da qeyd ediblər ki, bu, Fransanın TŞ daimi üzvü kimi missiyası və fəaliyyətinin məqsədləri ilə bağlı ciddi suallar doğurur.

Xatırladaq ki, “Dağlıq Qarabağ” nəinki başqa ölkələr, heç Ermənistanın özü tərəfindən də tanınmır. Rusiya Prezidenti Vladimir Putin Dağlıq Qarabağ zonası və ona bitişik 7 rayonun Azərbaycan ərazisi olduğunu dəfələrlə vurğulamışdır.

Fransa Senatının qərarını politoloq, “Milli Müdafiə” jurnalının baş redaktoru İqor Korotçenko “Moskva-Bakı”-ya belə şərh edib: “Fransadakı erməni lobbisi kifayət qədər təsirli və maddi cəhətdən bacarıqlıdır, bu səbəbdən bu qətnamə qəbul edildi. Və burada, Fransız deputatlar tərəfindən yalnız siyasi lobbi deyil, açıq-aşkar siyasi korrupsiya da mövcuddur. Bu, Makronun Ermənistanın baş nazirini hakimiyyətdə saxlamağa çalışmaq üçün Paşinyana göndərdiyi birmənalı dəstək siqnalıdır.

Əlavə olaraq, bu, üçtərəfli müqavilənin Rusiyanın vasitəçiliyi ilə imzalanması və Fransanın kənarda qalması mövzusunda qısqanclığın bir təzahürüdür- Makron bu razılaşma barədə mediadan məlumat aldı. Əlbəttə ki, əsəbiləşdi. Onun ambisiyaları vuruldu. Paris, Qarabağdakı vəziyyətin tənzimlənməsi prosesindən kənarda qaldığını başa düşdü. Bu, Fransanın üzünə siyasi bir şillə idi. Senatın qəbul etdiyi qətnamə Qarabağdakı müharibənin nəticələrindən sonra bağlanmış sənədə maksimum zərbə vurmaq cəhdidir.

Makronun oyununda “ağıllı” bir cəhd görürük. Onun Türkiyəni Qarabağdakı müharibəni Suriyada döyüşlərdə iştirak etmiş döyüşçülərlə təmin etməkdə günahlandırdığını hamımız xatırlayırıq. İndi Senat bir qərar qəbul etdi və Fransa XİN belə qərarların heç kimə fayda verməyəcəyini bildirdi. Makron bu yaxınlarda Fransanın Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini söyləmişdi. Təbii olaraq, həm Senata, həm də XİNə nəzarət edən məhz Makrondur. Əslində, belə çıxır- Paris bir şey deyir, başqa bir şey edir və ya əksinə.

Məsələn, erməni lobbisi sayəsində bəzi Fransız bələdiyyələri, şəhər məclisləri Qarabağı tanımağa çalışdı. Nəsə faydası varmı? Yoxdur. Borjomini Azərbaycanın müharibədə qalib gəldiyi bir vəziyyətdə içmək çox gecdir, bu müharibənin siyasi nəticələri ümumiləşdirilmişdir. Ermənistan qoşunları Azərbaycan ərazilərini tərk edir. Azərbaycana qarşı ərazi iddiaları daha mənasızdır. Azərbaycanın hərbi qələbə amili hər şeyi öz yerinə qoydu. Buna görə, Fransanın etməyə çalışdığı hər şey mənasız dalğalanmaqdır.

Fransa indi Dağlıq Qarabağın statusu məsələsini təbliğ edərək Qarabağdakı erməni əhalisinə humanitar yardım göstərir. Paris Azərbaycan ərazisindən kənarda qalan erməni minalarının zərərsizləşdirilməsi üçün istehkamçılara pul ayırsa daha yaxşı olar. O zaman Paris konstruktiv bir rol oynayacaqdı, lakin hələlik yalnız təhrikçi rolunu oynayır.

Çox yaxşı başa düşürük ki, Parisin yola düşən qatara tullanmaq cəhdləri heç bir nəticə verməyib. Azərbaycanın ərazi bütövlüyü bərpa edildi, üçtərəfli razılaşma ilə təsdiqləndi, Paşinyan təslim oldu. Heç bir şəkildə DQR olmayacaq, Azərbaycan dövləti çərçivəsində Qarabağın dağlıq hissəsində ermənilərin mədəni muxtariyyəti olacaq. Bu səbəbdən, bəzi siyasi hərəkətlər tamamilə səhvdir, heç nəyə səbəb olmayacaq və heç nəyə təsir etməyəcək. Fransa öz ambisiyalarını özündə saxlaya bilər, heç kimə lazım deyil. Ancaq Fransa Azərbaycandakı işinə bu şəkildə zərbə vura bilər. Aydın məsələdir ki, bu cür məzhəkələr Bakının reaksiyası olmadan qalmamalıdır. Azərbaycan hörmətəlayiq bir ölkədir və ona qarşı bu cür davranış Fransa üçün Azərbaycanda müəyyən iqtisadi itkilərlə nəticələnə bilər.

Bundan əlavə, Fransa bir daha ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri olmaq üçün mənəvi və qanuni hüququnu itirdiyini sübut etdi. Digər tərəfdən, Minsk qrupu indi nəyəsə təsir edirmi? Rusiyalı sülhməramlılar Qarabağdadır. Rusiya Azərbaycanın ərazi bütövlüyünü təsdiqlədi və ona hörmət edir.

Parisin bu hərəkəti Moskva tərəfindən necə qəbul ediləcək? Kimsə yersiz davranırsa, reaksiya verməyin nə faydası var? Seçkilərdə iştirak etmək üçün xarici dövlətlərdən pul alan keçmiş Fransa Prezidenti Nikola Sarkozinin mühakimə olunduğunu bilirik. Fransada belə bir siyasi korrupsiya faktları var. Ancaq fransızlara bu deputatları bu işlərə cəlb edənlərin kimlər olduğunu və onların məsuliyyətsiz davrandıqlarını göstərmək lazımdır. Əgər qətnamə müharibədən əvvəl qəbul olunsaydı, birtəhər diqqət çəkərdi. Ancaq indi fransız deputatlar istəsələr bu kağızı sadəcə özlərindən asa və onunla gəzə bilərlər.

Moskva son həftələrdə dəfələrlə Fransa və ABŞ-ın Qarabağla bağlı imzalanmış bəyanatla əlaqəli bir şəkildə qeyri-adekvat davrandıqlarına diqqət çəkdi. Paris və Vaşinqtonla əlaqəli açıqlamalar var idi. Ermənilər Fransa üçün bu qədər əzizdirlərsə, Paşinyan siyasi karyerasını bitirsə və həbs edilməsə, Makron onu Fransadakı erməni diasporu üzrə məsləhətçisi kimi götürsün, ya da Parisdə sürgündə olan “DQR” hökumətini yaratsınlar. Hamısı gülməli və axmaqdır.

Bu qətnamə ilə Fransa bütün Qərbi tamamilə nüfuzdan saldı. Həm Fransa, həm də ABŞ Azərbaycanın ərazi bütövlüyünü tanıdığımızı və gərginləşmə dövründə Ermənistanı da müdafiə etməyə başladığımızı söylədilər. Əvvəldən qərəzli münasibət gördük. Qərb öz kuklasını Yerevanda hakimiyyətə gətirdi. Sonra gördüklərimiz- Makronun Paşinyanla ortaq siyasi rəqsləri, Parisdə qarşılıqlı qucaqlaşmalar. Məşhur selfini xatırlayın.

Azərbaycanın qələbəsi yeni siyasi reallıqlar yaratdı. Fransa və ABŞ-ın Rusiyaya qarşı çıxaraq razılaşmanı pozmaq və oyun oynamaq cəhdləri yalnız onların geopolitik məğlubiyyətlərini artırır, bütün bu cəhdlər uğursuzluğa məhkumdur. Oyun artıq oynanmışdır. Mənə elə gəlir ki, Paris bu yeni reallığı hələ dərk etməmişdi və ya Senat deputatları o qədər siyasi ittihamlara məruz qalmışdılar ki, bu “möhtəşəm” qətnaməyə səs verməyə bilməzdilər.

Bu payızda formalaşan və Rusiyanın vasitəçiliyi ilə Qarabağla bağlı üçtərəfli Bəyanatın tarixi imzalanması ilə sona çatan Qarabağ ətrafında vəziyyət, Qərbin tamamilə itirdiyi Rusiya ilə Qərb arasında geosiyasi bir döyüş çevrildi. Vasitəçi olaraq öz xidmətlərini Azərbaycana və Ermənistana təklif edən Rusiya bu vəziyyəti geosiyasi cəhətdən qazandı. Azərbaycan qazandı, Rusiya qazandı. Başqa qalib yoxdur.

İndi bir daha Qərbin beynəlxalq hüquqa hörmətsizliyini, Qərbin həqiqi simasını görürük. Ancaq bu artıq heç kimi təəccübləndirmir. Demokratiyanın bir mənfi tərəfi var. Bu tərəfi həm Yerevanda, həm də Parisdə görürük.

Fransa, Makronun siyasi səhvləri üzündən dünya səhnəsində zəif bir oyunçu halına gəldi. Son aylardakı onun bütün ritorikaları Parisin bir sıra əhəmiyyətli diplomatik uğursuzluqlara məruz qalmasına səbəb oldu. Bu isə ölkənin nüfuzuna və iqtisadiyyatına təsir etdi. Makronun özünü Avropa İttifaqının lideri və beynəlxalq miqyasda bir siyasətçi kimi göstərmək cəhdləri siyasi bir fiasko ilə sona çatdı.

Azərbaycandakı hakimiyyət sisteminin bəzi Avropa ölkələrini qıcıqlandırdığını bilirik, çünki Bakı xaricdən maliyyələşən QHT-lərin fəaliyyətinə çox sərt məhdudiyyətlər qoyaraq ölkədə 5-ci kolonun fəaliyyət göstərməsinə imkan vermədən müstəsna olaraq milli maraqlarını qoruyur. Azərbaycan suverenliyini aydın və ardıcıl şəkildə müdafiə edir. Bunun əvəzinə Azərbaycanda “demokratiyanın pozulduğunu” eşidirik. Ancaq demokratiya Yerevanda və ya Parisdə “qələbə çalır”. Baxın, dövlətin 3-cü şəxsinin- parlamentin spikeri Ararat Mirzoyanın- İrəvanın mərkəzində sözün əsl mənasında linç edilməsinə heç bir Qərb liderinin heç bir ictimai reaksiyası olmadı. Bu, Qərb demokratiyasının üzüdür. Və erməni demokratiyasının əsil üzüdür. Ermənistanda silahlı izdiham Baş nazirin iqamətgahını dağıtdı. Bu nədir, demokratiyadır? Yox. Bunlar artıq heç kimin təəccübləndirmədiyi ikili standartlardır. Bu müasir dünyadır. Azərbaycan indi sadəcə düşmənlərini və dostlarını daha yaxşı görəcəkdir.

Buna görə də, Fransa vəziyyətə heç bir şəkildə təsir göstərə bilməyəcəkdir. Nikol Paşinyanın Qarabağın statusu məsələsini irəli aparmaq cəhdləri də uğursuzluğa məhkumdur. Fransa Ermənistanın Baş Nazirinə hakimiyyətdə qalacağına dair yalan ümidlər verməyə çalışır. Əminəm ki, Qarabağla bağlı üçtərəfli razılaşma həyata keçiriləcək və Paşinyanın siyasi karyerası günləri bitəcək. Ona tam müddətində indiki yerində oturmayacaq. Erkən seçkilər olacaq və ya Ermənistan heç vaxt çıxa bilməyəcəyi uçuruma sürüklənəcək”.

***Müəllif: Nana Xoşteriya***
***Tərcümə: Elçin Bayramlı***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

***Yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi” istiqaməti çərçivəsində hazırlanıb.***

# 30 Noyabr Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günüdür

***Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü 1988-ci ilin 30 noyabrından qeyd olunur. Məhz həmin ilin noyabrında universitetlər, elmi-tədqiqat institutları və hərbi idarələr də daxil olmaqla, ARPANET-in minlərlə qovşağını sıradan çıxaran ilk kompyuter virusu meydana gəldi və nəhəng itkilərə səbəb oldu. Yaradıcısının adı ilə Morris "soxulcanı" adlandırılan bu virusun vurduğu ziyan, təxminən, 100 milyon dollar həcmində qiymətləndirilmişdir. Morris "soxulcanı" göstərdi ki, informasiya təhlükəsizliyi, həqiqətən də, çox ciddi məsələdir və insanlar tərəfindən böyük səylər və müvafiq tədbirlərin həyata keçirilməsini tələb edir.***



Buna görə də, dünya ictimaiyyəti informasiya təhlükəsizliyinin təmin edilməsinə kompleks yanaşmanın zəruriliyi haqqında ciddi düşünməyə başladı. Həmin vaxtdan bəri informasiya texnologiyaları, təbii olaraq, informasiya cəmiyyəti inkişaf etdikcə, bu problem daha da aktuallaşır. Bunları əsas tutaraq, 1988-ci ildə Kompyuter Avadanlığı üzrə Amerika Assosiasiyası 30 noyabrı Beynəlxalq İnformasiya Təhlükəsizliyi günü elan etdi. Bütün dünyada olduğu kimi, Azərbaycanda da bu gün qeyd olunur.

İnformasiya-kommunikasiya texnologiyaları hər bir ölkənin sosial-iqtisadi həyatına geniş nüfuz etdiyindən, müstəqil Azərbaycanın qarşısında duran mühüm vəzifələrdən biri də, məhz qlobal informasiya məkanında layiqli yer tutması və inteqrasiyası idi. Ölkəmiz haqqında dünyaya dolğun məlumatların çatdırılmasında xüsusi rola malik olan bu sahəyə Ulu Öndər Heydər Əliyevin ayırdığı diqqətin məntiqi nəticəsidir ki, Onun Sərəncamı ilə təsdiqlənən "İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiya" qarşıya qoyulan məqsədlərə çatmaq üçün geniş yollar açmış oldu. Milli strategiya rabitə və informasiya texnologiyaları sahəsində kompleks tədbirlərin həyata keçirilməsində, bu sahənin qanunvericilik bazasının gücləndirilməsində əhəmiyyətli rol oynadı.

Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev, ölkəmizin bütün sahələrinə olduğu kimi, informasiya-kommunikasiya texnologiyaları sahəsinin inkişafına da önəm verərək, bu sahənin inkişafına yönəlmiş dövlət proqramları və zəruri islahatları həyata keçirməyə başladı. Həyata keçirilən dövlət siyasətinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu göstərən "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında ölkə başçısının məlum Sərəncamı milli strategiyadan irəli gələn vəzifələrin yerinə yetirilməsi, respublikanın informasiya cəmiyyətinə keçidinin təmin edilməsi baxımından əhəmiyyətli rol oynadı. Görülən işlərin məntiqi olaraq, artıq ölkəmizdə elektron hökumətin yaradılması, informasiya təhlükəsizliyi və digər məsələlərin həlli istiqamətində mühüm addımlar atılıb. Prezident İlham Əliyevin "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Fərmanı ölkəmizdə, nəinki elektron hökumətin inkişafı, həm də korrupsiyaya qarşı mübarizənin daha da gücləndirilməsində mühüm rol oynadı. Təbii ki, elektron xidmətlər, eyni zamanda, korrupsiya hallarının qarşısının alınması və şəffaflığın təmin edilməsinin effektiv vasitələrindən biri kimi qiymətləndirilir. Bu gün əbəs deyil ki, İKT respublikada korrupsiya ilə mübarizə, cəmiyyətdə şəffaflığın və demokratiyanın inkişaf etdirilməsi üçün əlverişli vasitə olaraq qəbul edilir. Ölkədə "Elektron hökumət" portalı fəaliyyət göstərir və bu portala qoşulmuş dövlət qurumlarının elektron xidmətlərinin "bir pəncərə" prinsipi əsasında əhaliyə təqdimi də görülən işlərin məntiqi davamıdır. Bütün bunlarla yanaşı, vətəndaşlara xidmətlərin daha keyfiyyətli, rahat, vahid məkandan və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində "ASAN xidmət" mərkəzləri yaradıldı ki, bu da, qısa müddətdə özünü doğrultdu.

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin prioritet elan olunması, 2008-ci ildə "Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması", 2009-cu ildə ölkədə "Kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" Prezident İlham Əliyevin sərəncamları bu sahənin inkişafına dövlət səviyyəsində göstərilən diqqətin əyani sübutudur.

Azərbaycan, Avropa və Amerika mütəxəssislərinin birgə səylərinin nəticəsi olan, amma Azərbaycan adı ilə ərsəyə gələn, Azərbaycan bayrağının təsviri ilə kosmosa göndərilən "Azərspase-1" telekommunikasiya peykinin orbitə çıxarılması ölkəmizin daha bir nailiyyəti kimi tarixə düşdü. Ötən müddətdə uğur əldə edilib. 2014-cü ildən "Azərspace-1" peyki vasitəsilə Azərbaycanın bütün televiziya və radio kanalları keyfiyyətli yayıma başlayıb. Həmçinin, tələb və rəqabətin artması, peyk tutumlarının bazar qiymətlərinə uyğun təklif olunması "Azerspace-1" peykinin əhatə etdiyi regionlarla əməkdaşlığı gücləndirməyə, eləcə də Livan, əfqan və ərəb bazarında fəaliyyət göstərməsinə şərait yaradıb. Hazırda "Azərspace -1" peyki vasitəsilə Azərbaycan, türk, ingilis, gürcü, fars, əfqan və digər dillərdə yüzdən artıq televiziya kanalı yayımlanır. "Azerspace-1" peyki regionda kifayət qədər tanınıb. Hazırda "Azerspace-1" peykinin resurslarının 60 faizdən çoxu kommersiya yönümlü istifadədədir. Azərbaycanın müdafiə və hərbi potensialının gücləndirilməsi işində "Azərsky" peykinin də xüsusi rolu vardır. Ölkəmizi daha böyük uğurlar gözləyir. Peyklərin orbitə çıxarılması Azərbaycanda kosmik sənayenin inkişafında uğulu addımlardır. Dövlət başçısının qeyd etdiyi kimi, Azərbaycan, qısa müddət ərzində, dünyanın kosmik klubunun dəyərli üzvünə çevrilibdir. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı uğurlu gələcəyimizin təminatıdır. Dövlət başçısı tərəfindən Azərbaycanda ən qabaqcıl texnologiyaların tətbiq edilməsi, əhaliyə yüksək keyfiyyətli xidmətlərin göstərilməsi, cəmiyyətdə informasiya texnologiyalarından istifadəyə əlverişli şəraitin yaradılması üçün məqsədyönlü işlər, davamlı olaraq, həyata keçirilir.

***Zümrüd BAYRAMOVA***

# Edmon Marukyan: "Ermənistan hakimiyyəti hələ də yalan danışır"



***"Ermənistan hakimiyyəti müharibədən əvvəl də, müharibə zamanı da yalan danışdı və bu günə qədər də yalan danışmağa davam edir." SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri "Maariflənmiş Ermənistan" partiyasının sədri, parlamentdəki fraksiyasının rəhbəri Edmon Marukyan bunu Ermənistan Hərbi Məclisinin növbədənkənar iclasında "Hərbi vəziyyətin ləğvi haqqında" qanun layihəsinin müzakirəsi zamanı söyləyib.***

Partiya sədri xatırladıb ki, müharibə başlamazdan əvvəl də yalanlar eşidildi, müharibə zamanı da, bu gün parlament tribunasından yalanlar eşidilir".

"Müharibə başladığı zamanda, 27 sentyabrda parlamentin fövqəladə iclası zamanı Paşinyan dedi ki, Dağlıq Qarabağı muxtar bölgə kimi qəbul etməyə razı olsaq, o zaman müharibəni dayandırıb bu məsələni həll edə bilərik", deyə o xatırladıb.

Xatırladaq ki, Ermənistanın baş naziri müharibə başlamazdan əvvəl heç bir siyasi qüvvə ilə bu mövzuda müzakirələr aparmayıb. Edmon Marukyanın sözlərinə görə, iyul toqquşmaları zamanı onlara elə bir hərbi potensiala sahib olduları barədə bildirilib ki, guya onları məğlub etmək mümkün deyil. O, həmçinin 30 mart 2019-cu il tarixində Müdafiə naziri David Tonoyanın dediklərinə də diqqət çəkib və onun, "yeni müharibə yeni ərazilər deməkdir" fikrini də xatırladaraq, bunun da aldadıcı olduğunu diqqətə çatdırıb.

Partiya sədrinin sözlərinə görə, müharibədən sonra məlum olub ki, Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi müharibənin üçüncü günü Paşinyana müharibəni davam etdirə bilməyəcəklərini bildirib, amma baş nazir bu mövzuda heç bir müzakirə aparmayıb. O, 11 oktyabr tarixində parlamentdə narahatlıqlarını Paşinyana bildirdikləri zaman da Paşinyanın konkret planlar təqdim etmədiyini, əksinə, mübarizəyə çağırdığını diqqətə çatdırıb. "Baş nazirdən müharibədə gələcək planlar barədə soruşulduqda, o partizan müharibəsi planlaşdırıldığı cavabını verib. Təsəvvür edin ki, 21-ci əsrdə ali baş komandanın cavabı budur", deyə Edmon Marukyan bildirib.

***İnam Hacıyev***

## Bakı-Xırdalan-Sumqayıt qatarı yenidən xəttə buraxılır



Xırdalan dairəsində yerləşən dəmir yolu körpüsündə tikinti işləri yekunlaşıb. Bu barədə SİA-ya "Azərbaycan Dəmir Yolları" QSC-dən bildirilib. Məlumatda deyilir ki, artıq körpüdə təhlükəsizliklə bağlı zəruri sınaq tədbirləri görülür. Yaxın günlərdə Bakı-Xırdalan-Sumqayıt istiqamətində qatarların hərəkətinin bərpa edilməsi planlaşdırılır. Dəqiq tarixlə bağlı ictimaiyyətə ətraflı məlumat veriləcək.

## Belarus Ukraynaya nota Verdi: Səbəb?



Belarus Respublikası Ukraynaya nota verib. SİA xəbər verir ki, bu barədə Belarus Xarici İşlər Nazirliyi məlumat yayıb. Ukraynanın Belarusdakı səfiri İqor Kizima XİN-ə çağırılaraq xəbərdarlıq edilib. Buna səbəb Kiyevdə Belarus hökumətinə qarşı keçirilən etiraz aksiyasıdır. Notada Ukraynada olan Belarus Səfirliyinin təhlükəsizliyinin təmin edilməsi, 1961-ci il Vyana konvensiyasına hörmət edilməsinin vacibliyi vurğulanıb.

"Radikal qruplar səfirlik binası ətrafında qanunsuz nümayiş keçirir, vəzifəmizi yerinə yetirməyə mane olmaqla yanaşı orada çalışan əməkdaşlarımızın, onların ailələrinin həyatlarını təhlükəyə atırlar",- deyə Belarus XİN açıqlamasında qeyd edib.

# Nikolun quldurları və onların xain ağası



***Xalqını rüsvay edən, təlxək hərəkətləri, uyğunsuz davranışları və ifadələri ilə özünü də lağ hədəfinə çevirən, özü və ətrafını, eləcə də təmsil etdiyi xalqı, dövləti alçaldıcı təslimçilik sənədinə imza atmaqla aşağılayan Nikol Paşinyan baş naziri olduğu ölkəsindən nəinki tamamilə nüfuzdan düşüb, hətta ona olan nifrət tamamilə yüksəlib və ən pik həddə çatıb. Təbii ki, belə olan şəraitdə kürsüsünü itirmək təhlükəsini hamıdan yaxşı elə baş nazirin özü başa düşür. Çünki, belə şəraitdən istifadə edərək çevrilişi reallaşdırıb və adını da demokratik inqlab qoyub hakimiyyəti zəbt edən elə özü olub.***

Vəziyyətinin hədsiz dərəcədə acınacaqlı, hakimiyyətinin tükdən asılı vəziyyətdə olduğunu çox aydın şəkildə dərk edən erməni baş nazir imitasiya etməyə çalışır ki, guya öz işini normal şəkildə davam etdirir və guya belə də olmalı imiş. Məğlubiyyətlərini qəbul edən və Dağlıq Qarabağ müharibəsində, döyüşdə məğlubiyyətini rəsmiləşdirən Nikol Paşinyan hökuməti və oturduğu yeri qurtarmaq üçün yeni bir plan həyata keçirməyə başlayıb. Bu manipulyator indi də iş adamları ilə görüşü gündəmə gətirir. Kapitulyasiya sənədinə imza atan baş nazir hərbi sənayenin inkişafı üçün utanmadan təlimat verir. Təbii ki, bu gözdən pərdə asmaqdan başqa bir şey deyil və Nikol erməni cəmiyyətinin gözündən pərdə asır. Özü də bu pərdəni bir komuflyaj kimi istifadə etməyi nəzərdə tutur. Təsəvvür edək ki, dövlət tərəfindən mərmisiz hərbi təyyarənin alınması üçün 130 milyon dollar ayrılan rəhbər, bu gün hərbi sənayenin inkişafı barədə danışır. Çəkinmədən, xəcalət çəkmədən danışır. Bu bir növ ona bənzəyir ki, sadəcə olaraq, baş nazir, özünü baş nazir kimi hiss etmək üçün heç bir addımını əsirgəmir, guya dayanmaq istəmir, guya daim aktiv fəaliyyətdədir.

Məsələn, iki gün əvvəl Nikol Paşinyan Sənayeçilər və Sahibkarlar Birliyinin prezidenti Arsen Qəzaryan, "Alex" Holdinqin qurucusu Samvel Aleksanyan, "Sovrano" şirkətinin sahibi Arman Sahakyan, "Spayka" şirkətinin sahibi David Qəzaryan və "Menu" qurucusu Vahan Kerobyan ilə görüşüb. Guya bu görüşlərin ermənilər, erməni cəmiyyətinin maraqları üçün təşkil edildiyi görüntüsü yaradılır. Amma heç də belə deyil axı. Düzdür bu şirkət rəhbərləri erməni əsillidirlər. Bunlar da öz vətənlərində yaşamaq maraqlarındadırlar. Amma, əlbətdə ki, onları, həmin iş adamlarını ilk növbədə öz qazancları maraqlandırır, Nikolun özü üçün nəzərdə tutduğu siyasi divident yox.

Yeri gəlmişkən, bir neçə gündür Samvel Aleksanyan haqqında şayələr yayılıb ki, Nikol Paşinyanın onu qorumaq üçün quldur dəstələri yaradıb. Hətta silah-sursat payladığı barədə davamlı şayiələr yayılır. Maraqlıdır, ya siyasət adamı, dövlət başçısı, ya da biznesmen üçün, iş adamı üçün sursat və müdafiəçi qismində quldur dəstəsi nəyə lazımdır? Bunlar kimi, nəyi və nə üçün müdafiəetməyi planlaşdırırlar? Yaxud, kimdən müdafiə olunmaq nəzərdə tutulur? Ümumiyyətlə, ölkədə bu şəkildə dəstə yaradılması hansı məntiqə sığışır və bu qeyri-rəsmi dəstə yaratmaq, silahlandırmaq hansı təcrübədən götürülüb? Bu, Nikol Paşinyanın dünyaya sivil dövlət, demokratik ölkə, təhlükəsiz diyar kimi təqdim etmək istədiyi sivil ölkənin dırnaqarası "Ermənistan modeli" hesab olunurmu?

Son kadrlardan da görünür ki, erməni baş nazir öz cangüdənlərini əhəmiyyətli dərəcədə artırıb. Yəni, Nikol Paşinyan, xalqın adından istifadə edərək hakimiyyəti ələ keçirən, qamarlayan birinin qəflətən nəyə görə bu qədər cangüdənə ehtiyac duyması özü də çox düşündürücüdür. Əvvəla, bu qədər cangüdənə rəsmi olaraq ehtiyac var idisə, yəni tələb olunurdusa, niyə əvvəldən bu qədər, bu sayda deyildi? Digər tərəfdən, sual oluna bilər ki, niyə məhz məğlubiyyətindən, ölkəsində insanların, erməni vətəndaşların ona qarşı qəzəbindən sonra mühafizəçi sayı bu qədər artdı? Təbii ki, bu Paşinyanın qorxusunu, kütlənin tızyiqindən ehtiyat etməsini təsdiq edir. Onu da təsdiq edir ki, Nikol aqressiv erməni kütlənin əlinə keçəcəyi təqdirdə Mirzoyandan daha dəhşətli vəziyyətə salınacağını da çox yaxşı bilir.

Bütün bunlarla yanaşı Paşinyana xatırlatmaq gərəkir ki, o hakimiyyətə güclə yox, guya ki, xalqın istəyi, könüllülüyü ilə gəlmişdi. Guya kütlə bir növ təkidlə Nikol Paşinyandan hakimiyyət kürsüsünü mənimsəməsini xaiş etmişdi. Öz dili ilə desək, guya yalvarmışdı da. İnsanlar arasında əli sarıqlı, beli çantalı gəzərək ən sadə bir vətəndaş imitasiyası yaradaraq hiyləgərcəsinə dövlət çevrilişi edəndə bu küçə nümayişçisi mühafizəçilərə, silahlı quldurlara deyil, xalqa güvəndiyini imitasiya edirdi axı. İndi birdən nə oldu ki, mühafizəsini dəyişdi? İndi nəyə görə mühafizəkarı kimi təqdim etdiyi xalqdan özü mühafizə olunur və bunun üçün qeyri-rəsmi silahlıya ehtiyac duyur? Bu quldurlarla xaldan qorunan bir dırnaqarası "lider" hələ də hakimiyyət xülyasındadır? Özü də xalqın hesabına guya əldə etdiyi hakimiyyətin xülyasında olmaq, həyasızlığın, erməni həyasızlığının pik həddidir desək, yanılmarıq.

**İnam Hacıyev**

# Ermənistanda etiraz aksiyaları davam edir



Hərbi qulluqçuların yaxınları Ermənistan Müdafiə Nazirliyinin binası qarşısında etiraz aksiyası keçirirlər. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, hərbi qulluqçuların yaxınları 27 noyabr tarixində yenidən Ermənistan Müdafiə Nazirliyinin binası yaxınlığında etiraz aksiyasına toplaşıblar.

Məlumatda qeyd olunur ki, etirazçılar uşaqları orduda xidmət edən insanları onlara qoşulmağa çağırıblar. Etirazçılardan biri, "uşaqlarımızın hərbi əsirlərlə eyni taleyi yaşamasını istəmirik", deyib. Etirazçılar saat 15:00-da artıq Nazirlər Kabinetinin binası qarşısında toplaşıblar. "Dağlıq Qarabağda xidmət edən, hərbi xidmətə çağırılanların valideynləri, bizə qoşulun!", deyə şuarlar da səsləndirilib və məqsəd aksiyanın miqyasını daha da böyütmək olub.

Binanın yaxınlığında çox sayda polis qüvvələri yerləşdirilib. Görünür, nə Ermənistan rəhbərliyi hərbçi ailələrinə, yaxınlarına məhəl qoymir, nə də etirazçılar işğalçı ölkə hakimiyyətindən əl çəkən deyil. Belə ki, mitinqlər, aksiyalar nə səngimək bilir, nə də yekunlaşmaq. Bütün bunlar isə erməni cəmiyyətinin narazılıqlarını həm ifadə, həm də təsdiq edir.



# Erməni həyasızlığı: evsiz gəldi, evlə getdi...

**RƏFİQƏ**

***Azərbaycan Ordusu tərəfindən azad olunmuş torpaqlarımızı tərk edən erməni işğalçıları əllərinə keçən bütün əşyaları maşınlara yükləyib daşıyırlar. Hətta evsiz gəlib 30 ilə yaxın torpaqlarında, hazır evlərindən zorla çıxararaq yaşadıqları başqasının evlərini belə yerli-dibli çıxararaq yük maşınlarında Ermənistana aparırlar. Erməni vandalları təbii ki, bununla da öz xislətlərini nümayiş etdirirlər.***

Hələ bu harasıdır? Abır-həyasını itirmişlər haylarını evdəki unitazlarda görərək ikiəlli elə yapışıb aparırlar ki, körpə uşaqlarını belə yaddan çıxarırlar. Görünür, apardıqları unitazlar onlara getdikləri yerdə daha çox lazımlı olacaq. Bax, budur erməni vandallarının xisləti, üç üzü, həyasızlığı. Hələ bu harasıdır.

Dünyaya özlərini əzabkeş kimi qələmə verən ermənilər qaçaqaçda qədim Azərbaycan torpaqlarının fauna və florasını məhv etməyi, meşələrimizi yandırmağı da unutmadılar. Bu azmış kimi, yaşadıqları ərazidə uzun illər istifadə etdikləri heyvanlara da qənim kəsildilər. Mal-qaranın bir qismini maşınlara yükləyən rəzil ermənilər yazıq eşşəklərə rəhm etməyərək qanlarına qəltan etdilər. Nədənsə maşında onlara yer tapmayaraq sözün əsl mənasında genosidə uğratdılar. Yəqin fikirləşiblər ki, Ermənistanda uzunqulaqlardan çoxdur.

Bu yerdə Yerevanda baş verən həyasızlıq heç ölçüyə gələ bilməz. Necə deyərlər "üzü...qırmızı". Bax, "Çiçəklənən Ermənistan" fraksiyasının deputatı Naira Zöhrabyan kimi. Bu üzü ...qırmızı Naira Zöhrabyan deyir ki, "Ermənistanın fəaliyyətdə olan hakimiyyəti Dağlıq Qarabağı "türklərin qarşısında diz üstə qoyub" və istintaq komissiyaları müəyyən etməlidirlər ki, bu, nəyin nəticəsidir". Həmin bu həyasızlığın o biri üzü olan deputatın sözlərinə görə, yaradılacaq istintaq komissiyaları bir çox suallara cavab tapmalıdır, o cümlədən, belə suala ki, "bu məğlubiyyət axmaqlığın, diletantlığın, yoxsa xəyanətin nəticəsidir? Üçtərəfli sənədlə ərazilərin təhvil verilməsi qrafiki nəzərdə tutulub. Bu, biabırçı qrafikdir. Biz, vətəni təhvil verirk". Bax bu yerdə necə deyərlər sifətinin o biri üzünü göstərmək istəyirsən, ancaq bu əxlaqsız, mənəviyyatsızların, yersiz gəlib, yerli gəlməsinə cavab verməlisən. Heç vaxt özümü emosional hesab etməmişəm, amma görəndə ki, Naira Zöhrabyan kimi üzlü həyasızın "bu Kəlbəcərə darvaza necə bağlanır, mən sizə min dəfə artıq nifrət etdim. Siz, mənim vətənimi təhvil verdiniz" - deməsinə bütün "tərifli sözlər" yerində deyiləndir! Lap, əcəb eləmişəm! Ay qırmızı üz Nairi hansı vətəndən dəm vurursan? Kəlbəcər nə vaxtan sənin "aətənin" olub. Elə zənn etdin ki, o iyrənc "Karvacar" adını qoymaqla hər şey qurtardı. Ay yazıq, rəzil, qorxaq və bədbəxtlər artıq hər şey bitdi! O sən dediyin "biabırçı" 10 noyabrda imzalanan bəyanat tarixi - Qarabağı Azərbaycana qovuşduran bəyanatdır! Çünki Qarabağ Azərbaycandır! Ancaq bircə onu düz deyirsən "Ermənistan hökumətinin başçısı Paşinyan Azərbaycanla danışıq aparmaq niyyətindən dəm vursa da, ancaq o, gülüş obyektinə çevrilib və yalnız ölkəni biabır etdi". Başqa cür də ola bilməzdi.

Ancaq onu deyək ki, nəsiniz, goreşənsiniz, qorxaqsınız, rəzilsiniz, amma terorrçusunuz, işğalçısınız, faşistsiniz. Nəinki Kəlbəcər, heç bir qarış torpaqlarımız sizin olmayıb, olmayacaq da! Artıq Qarabağ Azərbaycandır! və nidasını da noyabrın 10-da Azərbaycan Prezidenti, Ali Baş Komandanımız İlham Əliyev bir dəfəlik vurdu!!!

# Sürətlə artan sonsuzluq: milli genefondumuzu necə xilas edə bilərik?

*Sonsuzluq həm demoqrafik problemləri kəskinləşdirir, həm də ailə institutumuzu dağıdır*

***Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) son hesabatına görə, 100 il əvvəl sperma sayı bir mililitrdə 100-120 milyon olduğu halda, hazırda əksər kişilərdə bu rəqəm 15 milyona düşüb. Bu isə o deməkdir ki, hər 100 cütlükdən ən az 15-də sonsuzluq əlamətləri müşahidə edilir. Bəzi ölkələrdə bu rəqəm 30 faizdən çoxdur. Alimlər hesab edirlər ki, bu proses bütün dünyada ciddi demoqrafik problemlər yaradacaq və problemin qarşısını almaq mümkün olmasa, bu tendensiya insan nəslinin tədricən kəsilməsi ilə nəticələnə bilər. Bəs bunun səbəbləri nədədir, problemin qarşısını necə almaq olar?***

### Sonsuzluğa səbəb olan faktorlar hansılardır?

Dövrümüzün bəlası hesab edilən sonsuzluğun yaranmasına bir çox səbəb göstərilir. Amma ən çox ekoloji təsirlər- havanın, suyun, ətraf mühitin çirkliliyi və süni qidalar əsas gətirilir. Xüsusilə də kənd təsərrüfatında istifadə edilən dərmanlar, fabrik və zavod tullantılarının yaratdığı ekoloji çirklilik zamanla nəsilartırmadakı performansa təsir edir. Son illərdə sürətlə artan piylənmənin sonsuzluq nisbətlərində də təsirli olduğu danılmazdır. Həkimlər insan orqanizmində normal çəkidən artıq hər 10 kilonun sonsuzluq riskini artırdığını deyirlər.

Kişilərdə sperma sayının sürətlə azalmasının səbəblərinə gəlincə isə, araşdırmaya görə siqaret, alkoqol, narkotik, iqlim dəyişiklikləri, süni qidalanma, stress kimi faktorlar əsas səbəblərdir. Modern həyatın "töhfəsi" olan bir çox amillər insan fiziologiyasına ciddi təsir edir, bu təsir özünü daha çox nəsilartırmada büruzə verir. Bir çox qidaların tərkibində istifadə edilən bəzi hormonlar isə kişilərdə estrogen hormonuna çevrilərək ciddi formada sperma sayını azaldır.

ÜST-ün araşdırmasına görə, çox yaxın gələcəkdə süni mayalanma üsulu ilə doğulan körpələr normal yolla dünyaya gələn uşaqlardan çox olacaq. Qeyd edək ki, hazırda dünyada süni mayalanma ilə dünyaya gələn 6 milyondan çox insan var və bu rəqəm hər il xeyli artır.

### Androloq: "Hər 10 cütlükdən azı 8-də problem kişilərdə olur"

Rəsmi məlumatlara görə, Azərbaycanda yeni ailə quran cütlüklərin 13 faizi, qeyri-rəsmi məlumatara görə, 25 faizi sonsuzluq problemi ilə qarşılaşır. Azərbaycan ailələrində sonsuzluq probleminin əsas səbəbləri qadınlarda yumurtalıq, uşaqlıq borusu xəstəlikləri, kişilərdə isə sperma zəifliyi hesab edilir. Ölkəmizdə boşanmaların əsas səbəblərindən biri sonsuzluq hesab edilir. 2016-cı ildə ölkədə boşanmış 13.114 nəfərin 6.146-ı uşağı olmayanlar olduğu halda, 2017-ci ildə 14.514 boşanma halının 6.444-ü bu şəxslərin payına düşüb. 2018-ci ildə Azərbaycanda 14.857 boşanma halı qeydə alınıb ki, onun da yarıdan çoxu sonsuz ailələrin payına düşüb. Keçən il isə ölkədə uşağı olmayan 6.559 nəfər boşanıb.

Əgər 2000-ci ildə hər 100 min nəfər qadından 17.9 faizi sonsuzluğa görə qeydə alınırdısa, 2019-cu ildə bu rəqəm hər 100 min nəfərin 34.4 faizidir. Bu, həddən artıq ciddi artımdır və çox mənfi bir prosesdir.

Androloq Natiq İsayevin sözlərinə görə, dövrümüzdə kişi sonsuzluğu qadın sonsuzluğuna nisbətən daha çox yayılıb: "Süni mayalanma üçün müraciət edən hər 10 cütlükdən ən azı 8-də problem kişilərdən, daha konkret desəm, sperma ilə bağlı problemlərdən qaynaqlanır. Amma onların əksəriyyətinin yaxınları, ailə böyükləri qadının sonsuz olduğunu düşünürlər, onu ittiham edirlər. Amma etiraf etmək lazımdır ki, qadınların sonsuzluq problemi daha çətin həll olunur, nəinki kişidə. Əgər kişidə toxum yoxdursa, müalicə ilə həll etmək olur, əgər toxum azdırsa, bir dənə də olsa tapıb mayalandıra bilirik. Amma qadındakı problemi belə asanlıqla aradan qaldırmaq olmur, dolayısı ilə ailələrin çoxu qadın sonsuzluğuna görə dağılır".

Statistikaya görə, sonsuzluğun təxminən 40 faizinə səbəb kişilərdir, 30 faiz qadınlar, 30 faizində isə həm qadın, həm də kişilərdəki problemlər səbəb olur. Qeyri-rəsmi məlumatlara görə, hazırda ölkəmizdə 400 mindən çox insan sonsuzluqdan əziyyət çəkir.

Alimlər: "Coca-Cola" və energetic içkilər kişiləri xədim edir

Danimarkada aparılan araşdırma bir neçə il öncə dünya mətbuatında əks-səda doğurmuşdu. Araşdırmanın mövzusu çox insanın "bəh-bəh"lə içdiyi "Coca-Cola" idi. Nəticələr açıqlananda məlum oldu ki, 2 ay ərzində hər gün 1 litr "Coca-Cola" içən 2 min könüllü kişinin sperma sayında kəskin azalma var. Belə ki, 27-30 milyon sperm sayı olan insanlarda 2 aylıq "Coca-Cola" qəbulu bu sayı 15-16 milyona endirir. Kanada alimlərinin apardığı oxşar araşdırma da təxminən etnik nəticəni ortaya qoymuşdu, bu içkini bir neçə ay qəbul edən könüllülərin sperma sayı 30 faiz azalmışdı.

Həkimlər sperma qatili olan "Coca-Cola"nın hazırlanmasında istifadə edilən "kola qozu"nu əsas səbəb göstərirlər. Bu qoz əvvəllər yalnız Amerikada bitirdi və onu hindu döyüşçülərə məcburi yedirdirdilər. Səbəbi də o idi ki, əsgər cinsi istəyinin ardınca gedərək ordudan yayınmasın. Yəni, kişiləri təbii yolla xədim edirdilər. Qeyri-rəsmi məlumatlara görə, hazırda Amerika hərbçilərinə bu qoz gizli şəkildə yedirilir.

Bundan başqa, energetik içkilərin də sonsuzluğa səbəb olduğu qeyd edilir. Bu tip içkilərdən qəti şəkildə aralı durmaq lazımdır.

### Həkim: Modern geyimlər insanı sonsuz edə bilər

Sonsuzluğun səbəblərindən biri də geyim faktorudur. Qadınların uzun müddət dar şalvar geyməsi damarların sıxılaraq qeyri-normal vəziyyət almasına səbəb olur ki, bunun nəticəsində də rəhmdə iltihablanma, göbələk, ayaqların büküm yerlərində bədən yaralarına da səbəb olur.

Həddindən artıq dar geyimlər mütəmadi geyinilərsə rəhm və yumurtalıq öz funksiyasını itirərək qadın sonsuzluğuna gətirib çıxarır. İndi ailə quran hər 10 cütlükdən 4-ü həkim müalicəsi olmadan uşaq sahibi ola bilmir. Yeri gəlmişkən, dar şalvarlar kişilərdə də sonsuzluğa səbəb olur. Belə geyim kişilərdə yumurtalıqların bədənə daha yaxın yerdə dayanmasına səbəb olur.

Həkim Ziyad Sultanov deyir ki, bu, sonsuzluq yaradan səbəblərdən biridir: "Yumurtalar bədəndən daha aşağı temperaturda olmalıdır, amma dar geyim onları bədənə möhkəm sıxdığı üçün bədənin temperaturu ilə uyğunlaşır. Bunun nəticəsində də sperma hüceyrələrinin hərəkətliliyi və sayı kəskin surətdə azalır. Dar geyim hətta sperma yollarının bağlanmasına da səbəb olur. Dar geyimdə saatlarla oturaq işdə işləyən ofis işçiləri, uzaq yol gedən sürücülərdə sonsuzluğa daha çox rast gəlinir".

### Kompüterinizi qucaqlamayın!

Nyu-York dövlət xəstəxanasının bir qrup alimi notbuk və netbukların diz üstündə işlədilməsinin sonsuzluq faizini artırması ilə bağlı araşdırma apardılar. Dizinizdə və qucağınızda işlətdiyiniz zaman kompüterinizin içində istilik dərəcəsi bəzən 70 dərəcəni keçə bilir. Bu istilik isə çox zaman kişilərin qasıq bölgəsinə təsir edərək, yumurtaların normal temperaturu keçməsinə səbəb olur. Bundan əlavə kompüter diz üstündə saxlandığı müddətdə kişilər ayaqlarını bir-birinə qısaraq oturular ki, bu da yumurtaların bədənə yapışaraq temperaturunu yüksəltməsinə səbəb olur. Temperaturu normal dərəcəsindən çox yüksələn yumurtaların nəsilartırma fəaliyyəti isə dayanmış olur.

Xüsusilə də, oyun üçün istifadə edilən yüksək göstəricili notbuklar kişilərdə sperma sayını 40 faizədək azalda bilir. Nəzərə alsaq ki, bu gün dünyada 150 milyon insan kompüterdən qucağında istifadə edir, onda faizi hər gün artan sonsuzluq probleminin səbəbini qismən də olsa tapmış oluruq.

### Sonsuzluqdan necə qorunmaq olar?

Bizdən asılı olmayan səbəbləri (məs. ekoloji) kənara qoymaqla, özümüzdən asılı olan məsələlərə diqqət etməklə sonsuzluq bəlasından qorunmaq olar. Bunların bir çoxunu yuxarıda göstərdik. Ən əsası, düzgün və təbii qidalanma, fiziki hərəkətlilik və stresdən uzaq olmaqdır. Həkimlər bu 5 şərtə riayət edilməsinin vacibliyini bildirir.

**1. Sağlam və keyfiyyətli qidalanın**

Sonsuzluğun qarşısını alan ən yaxşı üsul düzgün qidalanmaqdır. Buna görə uşaq sahibi olmaq istəyən cütlüklər təbii qidalanmalıdır, süni emal qidalarından mümkün qədər aralı durmalıdırlar. Ədviyyatlardan istifadə edin.

**2. Stressi həyatınızdan çıxarın**

Stresli həyat da sonsuzluğa səbəb ola bilir. Buna görə həmişə pozitiv əhvalda olmağa çalışın. Neqativ enerji bütün orqanları sıradan çıxarır və cinsi sistemə də zərər vurur.

**3. Yuxu rejiminə əməl edin**

Daimi və keyfiyyətli yuxu sonsuzluğu müalicə etməkdə olduqca təsirlidir. Hər gecə bioloji saatla və 8 saatdan az olmayaraq yatmalısınız. Tam qaranlıq və səssiz şəraitdə, isti olmayan otaqda yatmağa çalışın.

**4. İdman və fiziki hərəkət edin**

Hormonal səviyyəni nizamlamaq üçün çox ağır olmayan gimnastik idman hərəkətlərini gündəlik olaraq etmək lazımdır. Bunu edə bilmirsinizsə, müxtəlif fiziki işlərlə məşğul olmaq lazımdır. 2 saatdan artıq oturmayın. Dar şalvar geyinmək zərərlidir.

**5. Zərərli vərdişlərdən uzaq olun**

Narkotika, siqaret, alkoqol kimi zərərli vərdişlər sonsuzluğun yaranmasına gətirib çıxarır. Buraya radiasiya dozası, kimyəvi maddə qəbulu (bir çox dərmanlar qəbul etmək və ya boya sexində respiratorsuz işləmək) və davamlı ağırlıqqaldırma ilə məşğul olmağı da daxil etmək olar. Ən yaxşısı sonsuzluğa gətirən səbəbləri vaxtında aradan qaldırmaqdır, çünki sonradan müalicəsi çox çətin və bahalı olur.

***Lalə Mehralı***



Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

28 noyabr

# SƏS

Son səhifə

## Hava şəraitindən asılı olaraq genişlənən bağ evi



İxtisasca fizik olan niderlandlı Kaspar Şolsun layihələndirdiyi bağ evi modeli böyük ictimai marağa səbəb olub. Xarici KİV-lərin yazdığına görə, ANNA adlandırılan dinamik ev hava şəraitindən, eləcə də ev sahibinin istəyindən asılı olaraq genişlənə bilir. Belə ki, ilk baxışdan adi görünən çoxfunksiyalı taxta evciyi zəruri olduqda 2 bərabər hissəyə bölərək açıq havada istirahət zonasına çevirmək mümkündür.

Su və istilik sistemi ilə təchiz olunmuş evin bir hissəsində mətbəx və vanna otağı, digərində isə yemək və qonaq otaqları yerləşib. Bağ evini sökülmüş halda dünyanın istənilən yerinə apararaq, quraşdırmaq olar. Modul evin qiyməti 100 min dollardır.

## Azərbaycan millisi beşinci səbətdə yer alıb

FIFA WORLD CUP Qatar2022

Dekabrın 7-də futbol üzrə dünya çempionatının Avropa zonası üzrə seçmə mərhələsinin püşkatması olacaq. Belə ki, FIFA-nın noyabr ayrı üzrə açıqladığı reytinq cədvəlinə uyğun olaraq, komandaların yer aldığı səbətlərin tərkibi məlum olub. Ötən ayla müqayisədə 5 pillə irəliləyən Azərbaycan milli komandası 5-ci səbətdə yer alıb. Püşkə əsasən beş qrupda 6, digər beş qrupda isə 5 komanda olmaqla komandalar 10 qrupa bölünəcək.

## Dövlət sərhədini pozaraq ölkə ərazisinə narkotik vasitələr keçirməkdə şübhəli bilinən iki qardaş saxlanılıb

**Dövlət sərhədinin təhlükəsizliyinin təmin edilməsi, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində sərhəd mühafizə və əməliyyat-axtarış tədbirləri davam etdirilir.**



Dövlət Sərhəd Xidmətinin (DSX) mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, noyabrın 18-də DSX-nin Sərhəd Qoşunlarının "Lənkəran" sərhəd dəstəsinin xidməti ərazisində Astara rayonunun Qapçıməhəllə kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində iki nəfərin dövlət sərhədini pozması əlamətləri aşkarlanıb.

Əməliyyat-axtarış tədbirləri nəticəsində dövlət sərhədini pozmaqda şübhəli bilinən Astara rayonunun Rüdəkəran kənd sakini 1991-ci il təvəllüdlü Məmmədov Mərhəmət Təyyubulla oğlu saxlanılıb. Onun yaşadığı mənzilə baxış keçirilərkən 0,5 kiloqram heroin və 115 ədəd "Metadon-40" həbi aşkarlanaraq götürülüb.

M.Məmmədov dindirilərkən dövlət sərhədini qardaşı - Astara rayonunun Rüdəkəran kənd sakini 1981-ci il təvəllüdlü Məmmədov Seymur Təyyubulla oğlu ilə birlikdə qanunsuz olaraq keçdiyini etiraf edib.

Daxili İşlər Nazirliyinin Astara rayon şöbəsinin əməkdaşları ilə birgə keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində S.Məmmədov yaşadığı evdə saxlanılıb. Araşdırma zamanı onun əvvəllər dəfələrlə oğurluq cinayəti törətdiyinə görə məhkum olunması müəyyənləşdirilib. Fakt üzrə cinayət işi başlanılıb. Vətəndaşlar M.Məmmədov və S.Məmmədov təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində həbs qətimkan tədbiri seçilib. Əməliyyat-istintaq tədbirləri davam etdirilir.

## Oğurluq edən keçmiş məhkum saxlanılıb



Salyanda oğurluq etmiş keçmiş məhkum saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Salyan Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisindəki 1 ev və 4 həyətdən ev əşyaları, avtomobil üçün ehtiyat hissələri, 20 ev quşu, su mühərriki, 2 qapı və velosiped oğurlamaqda şübhəli bilinən əvvəllər məhkum olunan Salyan şəhər sakini, 1987-ci il təvəllüdlü Coşqun Əliyev saxlanılıb. Faktla bağlı cinayət işi açılıb, araşdırma aparılır.

## Lifli qidalar insanı tox saxlayır və artıq çəkidən azad olmağa kömək edir



Sağlamlıq əslində sağlam və qatqıların olmadığı qidalardan başlayır. Sağlam qidalanmanın əsasını təşkil edən komponentlərdən biri lifli qidalardır. Aparılan tədqiqatlara əsasən gün ərzində hər kəsə 12-33 qram arasında lif qəbul etmək məsləhət görülür. Lifli məhsullarla qidalanma qan təzyiqini normaya salır, xolesterol səviyyəsini tənzimləyir, həmçinin mədə-bağırsaq sisteminin sağlamlığına müsbət təsir göstərir. Meyvə-tərəvəz və paxlalı bitkilərdə olan bəzi lif növləri orqanizmdə kalsium kimi əhəmiyyətli mineralların sorulmasına kömək edir.

Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun həkim-terapevti Taleh Abbasov AZƏRTAC-a deyib: "Lifli qidalar əsasən avakado, əncir və paxlalı bitkilərin tərkibində daha çox olur. Artıq çəkidən azad olmağa, hormonal sistemin tənzimlənməsinə kömək edir. Yaşından, cinsindən asılı olmayaraq hər kəsin lifli qidalar qəbul etməsi gün ərzində metobolizmi sürətləndirir".

Lifli qidaların bir xeyri də insanı tox tutmasıdır. Onun sayəsində həm də düzgün qaydada artıq kilolardan xilas olmaq mümkündür. Qəbul edilən hər 1000 kalori üçün 14 qram lif tövsiyə olunur. Bu növ qidalar maddələr mübadiləsini yaxşılaşdırır, eyni zamanda ürək xəstəliklərinin inkişafının qarşısını alır. Mütəxəssislər gündəlik qida rasionunda lifli qidalara yer ayırmağın vacibliyini qeyd edirlər. Onların fikrincə, bu növ məhsullara üstünlük vermək sağlam həyat tərzi sürməyə səbəb olur.

## ŞOK: Dünyada koronavirusa yoluxanların sayı 60 milyonu ötdü!



Dünyada koronavirusa yoluxanların sayı son sutka ərzində 577 mindən çox artıb. TASS informasiya agentliyinin verdiyi məlumata görə, bu barədə Ümumdünya Səhiyyə Təşkilatının hesabatında bildirilib. Məlumata əsasən, ötən sutka ərzində 577 198 nəfər yeni koronavirusa yoluxub, 11 263 nəfər isə dünyasını dəyişib. Yoluxanların ümumi sayı 60 074 174, ölənlərin isə 1 416 292 nəfərə çatıb.

## ELAN

**2005-ci il də 1105-Q6-1938 nömrəsi ilə dövlət qeydiyyatından keçən Sabaha Doğru Gənclər İctimai Birliyinə məxsus ilkin qeydiyyat şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.**

* * *

**Bakı şəhəri, Abşeron rayonu Masazır qəsəbəsində Bagçalı Evlər MTK tərəfindən Məmmədov Tagı Nagı oğlunun adına verilmiş 90/6 saylı mənzilin müqaviləsi və ödəniş cədvəli itdiyi üçün etibarsız sayılır.**

*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.